# Saz
**İsa Hüseynov**

© İsa Hüseynov. Seçilmiş əsərləri. 1988

1

Müharibə başlanandan sonra, bütün kənddə olduğu kimi İsfəndiyar kişinin evində də həyat tərzi dəyişmişdi.

Müharibədən əvvəl burda təkcə kiçik gəlin səhərlər lap tezdən oyanardı. İnəyi sağar, qapı-bacanı çalğılayar, ocaq qalayıb çay-çörək hazırlardı. Bütün ailə doyunca yatıb, gün doğandan sonra qalxardı. İndi isə hələ hava qaranlıqlı ikən İsfəndiyar kişi başını yastıqdan qaldırıb bir-iki kərə "öhö, öhö!" eləyir və bununla gəlinləri də, körpə nəvələri də dərhal yorğanların altında tərpənişməyə başlayırdılar. Çöllərdən şeh çəkilməmiş, gəlinlərin ikisi də manqabaşçıları Manqa Bənövşənin kənddən çıxıb cırıldaya-cırıldaya uzaqlaşan arabasının dalınca sahəyə tələsirdilər. İsfəndiyar kişi isə nəvələrini yanına alıb, "köhnə dudman" adlandırdığı dəmirçixananın qapısını açmağa gedirdi. Qoca vaxtı ilə oğlanları Rəhmanla Bəhmənə təhvil verdiyi, oğlanları əsgərliyə gedəndən sonra yetmiş yaşında yenə özünün sahib durmağa məcbur olduğu dəmirçixananın bir küncünü dəmir-dümürdən təmizləmişdi, palaz salıb, hətta mütəkkə qoyub əməlli-başlı mənzilə çevirmişdi. Uşaqlar bütün günü bu küncdə əylənirdilər. İsfəndiyar kişi isə beş dəqiqədən bir nəfəsini dərə-dərə körük basır, dəstəyində oğlanlarının və özünün barmaqlarının izi olan çəkici götürüb, uzun illər ərzində döyülməkdən ortası yəhərtək çökəlmiş qədim zindanın üstündə bel, kətmən düzəldir, gavahın yamayır, balta ovxarlayırdı…

Axşamlar gəlinlər manqanın arabasından düşəndə heç yerdə ləngimədən, birbaş dəmirçixanaya gəlib uşaqları aparırdılar, qayınata evə qayıdana qədər vurnuxub həyəti çalğılayır, inəyi sağır, samovar qaynadır, süfrə hazırlayırdılar. Amma İsfəndiyar kişi evə tələsmirdi. Dəmirçixananın böyründən axan arxın üstünə ayaq körpüsü əvəzinə qoyulmuş dəmir borunun ovuğundan konserv qutusunda araba yağı ilə əski parçasını götürüb, qara xrom çəkmələrini yaxşı-yaxşı silib parıldadır, torpaqla və otla sürtə-sürtə əllərinin his-pasını yuyur, həmişə köynəyinin döş cibində gəzdirdiyi daraqla saqqalının altını, üstünü darayıb sığallalayır, qurum və kömür qoxuyan papağını çırpıb başına qoyur, gödəkçəsi çiynində, təsbehi əlində, zərif, nurani sifətinə nisbətən az kobutaraq, tökmərək bədənini şax tutub, ağır, yorğun addımlarla kəndin ortasına, idarənin qabağına yollanırdı. Burda, divar dibində cərgə ilə sallağı oturub papiros, çubuq çəkən tay-tuşları ilə salamlaşıb, hal-əhval tuturdu, idarəyə girib, uzun, geniş dəhlizdə, "yel fənərinin" dövrəsinə toplaşmış camaatın arasında Manqa Bənövşənin qəzetdən qiraətlə oxuduğu "vayenni svodkaya" qulaq asırdı. Sovet sədri Qurban kişi ilə görüşüb, onun voyenkomatdan gətirdiyi növbəti

çağırış vərəqələrində kimlərin adları olduğunu öyrənirdi, kolxoz sədrinin kabinetinə girib, sabahkı "naryadın" verilməsində iştirak edirdi, yalnız bundan sonra, yenə pencəyi çiynində, təsbehi əlində, ağır, yorğun addımlarla evə dönürdü.

Əvvəllər, nə qədər ki, oğlanları getməmişdi, İsfəndiyar kişi kənd arasında, idarədə vaxt keçirməyi xoşlamazdı. Oğlanlarını və gəlinlərini işə yola salandan sonra həyətdə oturub nəvələri ilə məşğul olardı. Böyük oğlu Rəhmanın bir-birindən seçilməyən, ailədə "qara pıspısalar" adlanan, ikisinin də elə bil üzlərinə kömür qarası çəkilmiş qızları əski-üsküdən düzəltdikləri "bəbələri"ni onun dizlərinin üstünə düzüb layla çalmağı tələb edirdilər. İsfəndiyar kişi usanmadan, birdən yarım saat layla deyərdi. Kiçik oğlu Bəhmənin topasaçlı, qarnıaçıq ekiz oğlanları onun dizinin üstündə oturub "Keçəlin nağılı"nı danışmağı tələb edərdilər. İsfəndiyar kişi usanmadan, bəzən hətta gündə bir neçə dəfə "Keçəlin nağılı"nı danışardı. Bir saat, para saat bağçada, ağacların arasında qurdalanması və hərdən yoldan keçən tay-tuşu ilə söhbət eləməsi hesaba alınmasa, qoca, demək olar ki, bütün günü həyətdə, nəvələrinin yanında oturardı. İndi isə elə bil evdən, ailədən aralı olmağa bəhanə axtarır, bəzən hətta idarədən qayıdanda dəmirçixanaya burulub, gəlinlərindən biri dalınca gəlməyincə çəkici əlindən yerə qoymurdu.

Bir axşam yenə dəmirçixanaya buruldu. Qapının dalına söykədiyi ağır dəmir lomu götürüb içəri keçdi, zil qaranlıqda heç nə görünməsə də, xırdaca mıxlardan tutmuş səpici maşın və kotan ələngələrinə qədər, nəyin harda olduğunu əzbər bildiyindən, heç bir şeyə ilişmədən, asanca yeriyib yuxarı başda, kürənin yanında gödəkcəsini dirəkdən asdı.

Qoca sinəsində küt ağrı hiss edirdi. Bədəni ağırlaşmışdı. Həmişəkindən fərqli olaraq, işləməyə o qədər də həvəsi yoxdu. Amma gedib həyətdə və ya evin bir küncündə oturub, bütün günü ketmən vurandan sonra indi də qapı-bacada çalışan gəlinlərinin yorğun, qəmli üzlərini, kimisi oturduğu yerdəcə mürgüləyən, kimisi də hərdən zıqqıldaya-zıqqıldaya yemək gözləyən nəvələrinə tamaşa etməyi, öldüsü-qaldısı bəlli olmayan oğlanlarını xatırlayıb, necə deyərlər, qəm dəryasına da qərq olmağı istəmirdi.

Yavaş-yavaş əlini qaldırdı, kəndirdən tutub çəkdi. Körük xoruldadı, fısıldadı, sonra aramla uğuldamağa başladı. Kürədə üzərini qalın kül layı basmış od parçası bir ucdan işıldayıb qızardı. Qoca, dirəyin haçasından qara çırağı götürdü, silkələyib nefti yoxladı, piltəni bir az yuxarı çəkdi, kürədə, odun üzərində oynaşan xırdaca alov dillərindən yandırıb çırağı yerinə qoydu. Tünd qara hisli, qırmızımtıl alovun hənirindən lap alçacıq tavandan sallanmış qurumlar titrəşdi, söyüd şivindən hörülüb axırıncı dəfə kim bilir haçan suvanmış divarların dəlmə-deşiklərində sərçələr cükküldəşib dərhal da səslərini kəsdilər.

İsfəndiyar kişi kürənin ətrafındakı boş dairədə fırlanıb dəmir qalaqlarına göz gəzdirdi. Neçə gündən bəri yerə atılıb qalmış paslı dəhrəni götürüb ora-burasına baxdı. Bu dəhrəni o taylı Tat Seyidin istəklisi, alverçi Xeyrə deyilən çaxır satan arvad gətirmişdi. İsfəndiyar kişinin bu arvaddan xoşu gəlmirdi. Dəhrəni atıb bir daha ətrafına göz gəzdirdi. Dibinə qırmızı kərpic tozu kimi qalın pas və dəmir qarası çökmüş ləyəndə su azalmışdı. Qoca,

vedrəni oraya basıb doldurdu. Dikələndə, sinəsindəki küt ağrı xeyli artdı. Ömründə heç adi başağrısı da görmədiyindən, ağır yük qaldırmaqda, yeri düşsə, döşünə döyən hər hansı bir gənclə qurşaq tutmaqda və sair bu kimi şeylərdə heç kəsdən geri qalmayan bədəninin sağlamlığına möhkəm etiqadı olduğundan, sinəsindəki ağrıya qətiyyən əhəmiyyət vermədi, qayıdıb ləyəni su ilə doldurdu. Alverçi Xeyrənin paslı dəhrəsinə ötəri baxıb, gündüzlər nəvələrinin oynadıqları küncə fırlandı, orda divardan asılı qoltuq ağacını götürüb qayıtdı. Kürəyə əl boyda bir dəmir parçası atıb, körüyü basmağa başladı.

Otaqda çatıltı-patıltı qopdu, qoltuq ağacının, zindanın, məngənənin, su ləyəninin üzərinə saysız-hesabsız qığılcım səpələndi. Kürə sakitləşəndə ordan göyümtül alov püskürdü. Dəmir parçası əvvəlcə qızardı, sonra tədricən ağardı, üstünün alovu da ağımtıl rəngə çalanda, qoca körüyün ipini buraxıb, necə cəld tərpəndisə, çəkiclə kəlbətini heç elə bil özü götürmədi, əksinə, çəkiclə kəlbətin özləri atılıb dəmirçinin əllərində hazır oldu. Qızmar dəmir parçası da elə bil öz-özünə kürədən uçub dəmirçixananın yarımqaranlığında qövs cızıb zindanın üstündə qığılcımlandı, tez-tez o yan-bu yana fırlanan kəlbətinin ucunda, fasiləsiz çəkic zərbələri altında nahamvar görkəmini dəyişib uzandı, yastılandı, bir ucdan qıvrılıb tünd qırmızı bilərzik şəklinə düşdü. Qoca dəmir parçasını ləyənin içinə atdı. Poqquldayıb buğlanan suya baxa-baxa köynəyinin qolu ilə alnının tərini sildi. Bədəni nəmçiyib yumşalmışdı. Bayaqkı ağırlıqdan, həvəssizlikdən əsər-əlamət qalmamışdı. Cavanlıqda olduğu kimi, işləyəndən sonra qollarında, sinəsində əzələlərinin öz-özünə tərpənib oynaşdığını duyurdu.

Qoca bir az da gözləyib kəlbətini götürdü, dəmir halqanı sudan çıxarıb əlinə aldı. Dəmir hələ isti idi. Başqa birisi bunu bəlkə də əlinə götürə bilməzdi. İsfəndiyar kişinin ovucları isə oddan da yanmırdı. Dəmir həlqəni çırağın işığına tutub ora-burasına baxdı, kürənin ətrafındakı müxtəlif biçimli yeyələrdən ən balacasını götürüb həlqənin üstünü qaşıdı, içərisini yeyələdi, indi gümüşü rəngli bilərziyə oxşayan həlqəni qoltuq ağacının ucuna keçirdi, xırdaca çəkiclə çıq-çıq vurub oturtdu.

Bu qoltuq ağacını İsfəndiyar kişi, kəndin feldşerinin xahişi ilə, indi uzaq dağlarda kolxozun qoyun sürüsünü otaran çoban Abdullanın oğlu Məhərrəm üçün düzəltmişdi. Oğlunun Rusiyanın harasında isə hərbi xəstəxanada yatdığını biləndən sonra çoban Abdulla birdən on beş qoyununu bazara sürüb satıb, voyenkom Talıbovun köməyi ilə oğlunu hərbi xəstəxanadan çıxarıb gətirmişdi. Atasının dediyi kimi, lap uşaqlıqdan əmlik əti, qaymaq, dələmə ilə bəslənməsinə baxmayaraq, Məhərrəm cılız oğlandı; bir neçə yerdən sümüyü zədələnmiş sol qıçı çoxdan sağalsa da feldşerin dediyinə görə, keçmiş ağrıların şiddətindən gözü qorxduğundan, qalxıb ayağını yerə basmağa casarət eləmirdi.

İsfəndiyar kişi qəmli-qəmli gülümsündü; feldşeri çağırıb, bir yerdə gedib, dəhşətli can ağrısından ufacıq olmuş əsgəri nəhayət ayağa qaldırıb Abdullanın arvad-uşağını sevindirəcəyini fikirləşəndə, özü də sevindi.

Amma bu axşam qoltuq ağacını aparası olmadı; gödəkcəsini çiyninə salıb, kürədə odun üstünü küllə örtüb, divara söykəndi, qoltuq ağacı əlindən düşdü. Bircə dəqiqə bundan əvvəl sinəsində oynayan əzələləri indi ağrıdan dartılıb qəfildən qurumuşdu. Bədəni soyumuşdu. İsfəndiyar kişi beləcə nə qədər dayandığını bilmədi. Ağrı azalanda, gəlinlərinin gəlib onu belə büzüşük görəcəyindən ehtiyatlanıb qamətini düzəltdi. Lomu qapının dalına söykədi, arxın üstünə ayaq körpüsü əvəzinə qoyulmuş dəmir borunu adlayıb, yavaş-yavaş evə doğru addımladı.

Demək, yenə evə gedirdi. Rəhmansız, Bəhmənsiz evə, gəlinlərinin, nəvələrinin üzünə baxa-baxa, qəm dəryasına qərq olmağa gedirdi.

2

Qırx birinci ilin yazında, may bayramı münasibətilə pəhləvan gəlmişdi. İdarənin qabağındakı meydançaya çoxlu xalı-xalça döşənmişdi. Pəhləvan qurşaqdan yuxarı soyunub burda daş qaldırırdı, əzələlərini oynadırdı, arxası üstə uzanıb qarnının üstündə pianino çaldırırdı.

Meydançanın bir küncünə bilək yoğunluğunda uzun bir dəmir qoyulmuşdu. Camaat pıçıldaşırdı ki, pəhləvan bu dəmiri əyib, kəmər eləyib belinə dolayacaq. Daş qaldırması, əzələlərini oynatması, yıxılıb qarnının üstündə pianino çaldırması nə qədər maraqlı olsa da, pəhləvanın həmin yoğun dəmiri kəmər kimi belinə dolayacağını hamı xüsusi maraqla gözləyirdi. “Əşi, baş tutan şey deyil!” “O yoğunluqda dəmiri də əymək olar?”—deyib şübhə edənlər də vardı.

Birdən camaatın arasından meydançaya bir cüt oğlan çıxdı. İkisi də bəstəboy. İkisi də enlikürək. Belləri, necə deyərlər, üzükdən keçərdi. Meydançanın dövrəsində xısın-xısın pıçıltı gəzdi ki, İsfəndiyar kişinin oğlanları pəhləvanla güləşmək istəyirlər. Pıçıltı sürətlə gəzib birdən də xırp kəsildi. Yeriyəndə ayı kimi yanını basan, yekəqarın, nataraz pəhləvanın yanında bu cavanlar çox zərif və yüngül görünürdülər. Tamamilə aydındı ki, dəmirçi qardaşlar, ikisi də birdən həmlə gəlsə belə, qara dağtək dayanmış pəhləvanı bəlkə heç yerindən tərpətmək də mümkün olmaz. Baxışlardan narahatlıq, intizar oxundu. İsfəndiyar kişinin barmaqlarının arasında təsbehin çıqqıltısı kəsildi. Qoca irəli durub, oğlanlarına təpinmək istədi. Amma demə dəmirçi qardaşların niyyəti ayrı imiş. Pəhləvana güləş təklif etmək əvəzinə, meydançanın küncündəki həmin yoğun dəmirə yaxınlaşdılar. Hərəsi dəmirin bir ucundan qaldırıb belinə dayadı və… dəmir elə bil muma çevrildi. Camaat sevinclə, fəxrlə qışqırışdı. Təkcə İsfəndiyar kişidən səs çıxmadı. Qocanın dodaqları və saqqalının ucu titrədi.

—Ayıb olsun, ayıb olsun mənim oğullarıma da, sizə də, ay camaat!

Yenə hamı susdu. Qoca dəmirçinin belə danışması əvvəlcə təəccüb doğursa da, sonra məlum oldu: pəhləvan basılmışdı. Özü də necə pəhləvan! Bütün ölkədə ad-san qazanmış, bütün xalqın hörmət etdiyi, sevdiyi Rəşid pəhləvan!

Sifətlərdə, baxışlarda peşmançılıq göründü. Ekiztayı kimi bir-birinin eyni olan topsaçlı qardaşların ikisi də başını aşağı saldı.

İsfəndiyar kişi təsbehini cibinə qoyub, əlini saqqalına çəkdi, "beyni qan cavanların" el-gün adətindən kənar iş tutduqlarına görə üzrxahlıq eləmək üçün münasib sözlər axtardı. Ancaq heç nə deyəsi olmadı. Çünki bu vaxt pəhləvan, dəmirçi qardaşların ikisini də qucaqlayıb alınlarından öpürdü, köyrək-köyrək nə isə deyirdi.

İsfəndiyar kişi yalnız axşam xəbər tutdu ki, pəhləvan Rəhmanla, Bəhməni Bakıya aparmaq, pəhləvanlıq dərsi keçmək istəyir. Kəndin başbilən və ağsaqqalı hesab olunan Sovet sədri Qurban kişi, yanında pəhləvan və daha bir neçə adam gəlib İsfəndiyar kişiyə minnət elədilər. İzin istədilər. "Oğlanların bütün ölkədə tanınacaqlar. Qəzetlərdə şəkilləri çıxacaq. Həm sənin, həm də bizim başımız uca olacaq."

İsfəndiyar kişi bığının altında qımışırdı. Bütün ömrünü "köhnə dudman"da dəmir döyməklə keçirsə də, ad-san, şan-şöhrət sevən adamdı; dərhal razılıq verdi.

Ertəsi günü rayon mərkəzindən məşhur pəhləvanı aparmağa gələn "M-1" İsfəndiyar kişinin həyətində dayandı. Böyük qardaş əvvəlcə kiçik qardaşın əkizlərini, sonra da öz qızlarını növbə ilə öpdü. Kiçik qardaş isə əvvəlcə böyük qardaşın qızlarını, sonra da öz əkizlərini öpdü. Elə bil cəmisi yeddi-səkkiz saatlıq yola yox, uzun səfərə, aylayıb-illəməyə gedirdilər. Kimin ağlına gələrdi ki, qardaşlar məhz uzun səfərə çıxır və… həmişəlik gedirdilər!

Əvvəlcə Bakıdan, idman cəmiyyətinin yataqxanasından məktub yazdılar. Müharibə başlanandan sonra "polevaya poçta"dan yazdılar. Daha sonra isə heç yerdən heç nə yazmadılar.

Rəhmanla Bəhməndən iki şey qalmışdı. Biri—vaxtı ilə idarənin qabağındakı meydançada kəmər kimi bellərinə doladıqları dəmir, biri də, İsfəndiyar kişinin nədənsə Rəhmandan fərqləndirib "sonbeşik"—yurduma keşik" deyə-deyə əzizlədiyi Bəhmənin şirmayılı sazı.

Bəhmən aşıq-zad deyildi, ustad yanında olmamışdı. Amma hələ lap uşaqlıqdan yaxşı—yumşaq və bir az titrək səsi vardı. Oğlunun on beş yaşı olanda, İsfəndiyar kişi bir inək verib başdan-ayağa şırmayıya tutulmuş bir saz almışdı, Bəhmən isə toylarda, mağarlarda aşıqların əllərinə baxa-baxa, yavaş-yavaş çalmaq öyrənib, başı çıxanların dediyinə görə, əməlli-başlı bişginləşmişdi.

Çiy kərpicdən tikilmiş, damına qom-qom qamış döşənmiş alçaraq evin qabağında, su quyusunun üstündə kimin əkdiyi və nə vaxt əkdiyi bəlli olmayan, yoğun, hamar gövdəsində ərəb əlifbası ilə nə isə qat-qarışıq sözlər qazılmış qədim və nəhəng qovaq ağacı vardı. Bəhmən bu qovağın başında, yastı haçada oturub sazını burda çalmağı, təzə öyrəndiyi havaları bütün kəndə eşitdirməyi sevərdi. Dəmiryolçu Məhərin kiçik bacısı

Tubuya vurulandan sonra yerini dəyişib bir az da yuxarı çıxardı ki, sazın səsi kəndin yarımkilometrliyindən keçən dəmir yolunun kənarında “Məhərin budkası” deyilən yerə də çatsın.

Tubuya nişanlanandan sonra birdən-birə qovağın başına qalxmağı tərgitdi. Çalmağında, oxumağında da dəyişiklik əmələ gəldi. Daha həmişəki kimi simləri vur-hay döyəcləyib gündə bir neçə mizrab sındırmırdı. Yerdə oturub, kürəyini qovağın gövdəsinə söykəyib, çox zaman gözlərini yumub, simləri az qala birər-birər dinləyirdi, asta-asta, narın-narın, həzin-həzin çalırdı. Həmin bu vaxtlarda da sazdan-sözdən başı çıxanlar onun “daha bişginləşdiyini” etiraf etdilər. Bəhmənin “xoruz təki dikə qalxıb banlamağını,” “danqırhadanqır salmağını” xoşlamayan İsfəndiyar kişi də, birdən-birə dəyişib, oğlunun barmaqlarına necə vuruldusa, hətta özü də “qoca vaxtında azdan-çoxdan danqıldatmağa” başladı.

Oğlanları gedəndən sonra, axşamlar evdə darıxanda qoca hərdən sazı köynəkdən çıxarırdı. Eyni ilə Bəhmən kimi, kürəyini qovağın gövdəsinə söykəyib, eyni ilə Bəhmən kimi narın-narın “dınqıldadırdı” və vaxtı ilə Dərəçiçəkli aşıq Alıdan eşitdiyi dastandan bir beyti öz ürəyinə yatan şəkildə dəyişdirib mızıltı ilə oxuyurdu:

Gəl, ey şeşpayi bəhrim,
Qalmadı tabanım, təhrim.
Düşmən gəlib məni kəməndə salar,
Şah babamın gözü yolda qalar.
Gəl, ey şeşpayi bəhrim,
Qalmadı tabanım, təhrim.

Qoca hər dəfə yalnız bu beyti oxuyurdu və hər dəfə gözləri dolurdu. “Gəlin, ey Şeşpayi bəhrlərim! Şah babanızın gözünü yolda qoymayın, gəlin!”—deyirdi.

Bir axşam, həmişəki qayda üzrə, araba yağı ilə çəkmələrini silib, gödəkçəsi çiynində, təsbehi əlində, idarədə vaxt keçirib evə qayıdandan sonra yenə sazı götürdü. Ancaq çalmadı. Bir tərəfini iri, uzun taxt, o biri tərəfini yorğan-döşək yığını və taxıl çuvalı tutmuş otağın yuxarı divarında, uşaqların əli çatmayan yerdən mıx vurub, sazı ordan asdı.

—Əhd, eləmişəm, Bəhmən gələnə qədər saz köynəkdən çıxmayacaq,—dedi.

Nə üçün əhd elədiyini isə demədi.

3

Kənddə axsaq Hacı deyilən bir feldşer vardı. Ləqəbindən göründüyü kimi, axsayırdı: sol qıçı anadangəlmə gödəkdi. Yetim, kimsəsiz, fağırhal bir oğlandı. İdarə binasının küncündə, balaca bir otaqda yerləşən ambulatoriyada çit arakəsmənin dalına çarpayı qoyub orda olurdu. Səhərlər Hacı boz iplə, ağ, qara sapla, bir-iki yerindən hətta məftillə

yamanmış, üzü üzlər görmüş brezent çantasını çiyninə alıb ambulatoriyadan çıxırdı, çoban Abdullanın oğlu Məhərrəmin sarğısını dəyişəndən sonra yenə çantasını çiyninə alıb, sol qıçının üstünə çəkə-çəkə, toz-torpaqlı yollarla, daşlı-kəsəkli, qanqallı, tikanlı cığırlarla briqadaların, manqaların dağınıq sahələri, tarla düşərgələri arasında taytayırdı, iş üstündə əli, ayağı yaralananların yarasına yod sürtürdü, həmişə cibində gəzdirdiyi əzik-üzük "uçot dəftərini" çıxarıb qızdırmalılara kinə paylayırdı. Hələ gün batmamış, Hacı dəmir yolu xətti boyunca uzanan kanalın qıraqlarında, qamışlıqlarda itib batırdı. Gedib baxan olsaydı, feldşerin əleyhqaz geyinib bataqlığa əhəng səpələdiyini görərdi. Ətraf kəndlərdə ağcaqanad yuvası olan gölməçələrə "qara nöyüt"—mazut tökürdülər. "Ağcaqanadla mübarizə" üçün əhəngdən istifadə etmək Hacının öz "kəşfi" idi.

İlin əvvəlində bir dəfə dəmir yolu vağzalına getmişdi. Vağzal binasının arxasındakı düzənlikdə, xırda-xırda ağ kisələrdə çoxlu əhəng gördü. Yağışın altında qaldığından, əhəng qaynayıb kisələri yandırıb parça-parça eləmişdi. Qartək düm ağ toz səpələnmiş düzənlikdə otlar da yanıb qaralmışdı. Kəndçi oğlu olsa da birinci dəfə idi ki, Hacı əhəngdə belə hikmət görürdü. Dayanıb fikirləşdi ki, deməli, bu əhəng bataqlığa səpilsə, ordakı qamışlıqları və qamışla birlikdə ağcaqanad sürfələrini də məhv edə bilər.

Hacı stansiya rəisi ilə danışıb, əl boyda bir kağızda karandaşla qəbz yazdı: "Mən, Qurbanlı kənd sakini Hacı Daşdəmir oğlu, 1942-ci il fevralın on üçündə yüz altmış ədəd əhənglə dolu kisəni təhvil alıb ağcaqanadla mübarizə üçün istifadə etməyə apardım."

Qol çəkib qəbzi rəisə verdi. Kəndə qayıdıb traktorla lafet gətirdi, kisələri aparıb gölməçələrin arasında talaya boşaltdı, camaatdan köhnə, lazımsız palaz yığıb əhəngin üstünü örtdü ki, yağışın altında qalıb yandırıcı təsirini itirməsin. İndi dörd aydan artıqdı ki, Hacı hər axşam işdən sonra bataqlığa əhəng səpələyirdi. Amma camaatdan hələlik feldşerin bu işi ilə maraqlanan yoxdu. Kimin nəyinə gərəkdi ki, ilanlı, qurbağalı, iyli, qoxulu gölməçələrə girib, üzərində boz buludtək ağcaqanad qaynaşan qamışlıqlara başını soxub, axsaq feldşerin orda saatlarla nə üçün itib-batması ilə maraqlansın? Bununla hərdən kəndin, necə deyərlər, rəhbər işçiləri, camaatdan isə təkcə İsfəndiyar kişi maraqlanırdı.

Axsaq feldşerlə İsfəndiyar kişini elə bil tale özü birləşdirmişdi. İlk baxışda bəlkə də qəribə və gülməli, əslində isə kədərli bir hadisə qocanın ürəyində bu oğlana rəhmdillik oyatmışdı.

Müharibədən bir neçə il əvvəl, bir gün Hacı dəmirçixanaya gəlib, boynunu burub acizanə xahiş eləmişdi ki, İsfəndiyar kişi, kəndin mötəbər ağsaqqallarından biri kimi, zəhmətə qatlaşıb elçilik eləsin, Hacını evləndirsin. Sonra məlum olmuşdu ki, Hacının, necə deyərlər, dünyadan xəbəri yoxdur: onun istədiyi qız—dəmiryolçu Məhərin böyük bacısı Pəri çoxdan alışıb-verişib. Özü də bir başqası ilə yox, Hacının elçilik üçün müraciət elədiyi adamın—İsfəndiyar kişinin böyük oğlu Rəhmanla!..

Bir il sonra, Rəhmanla Pərinin toyunda Hacı keflənib İsfəndiyar kişinin boynunu qucaqladı: “Böyük bacını öz oğluna aldın, kiçik bacını da mənə al, imanına qurban olum, İsfəndiyar əmi!” Amma məlum oldu ki, bədbəxt feldşerin bu dəfə də oxu daşa dəyib—kiçik bacı Tubu da çoxdan alışıb-verişib! Özü də bir başqası ilə yox, İsfəndiyar kişinin kiçik oğlu Bəhmənlə!

Bu əhvalatdan sonra İsfəndiyar kişi ilə rastlaşanda Hacı başını aşağı salıb xəcalətindən tər tökürdü, mümkün qədər onunla görüşməməyə çalışırdı. Amma İsfəndiyar kişi ilə görüşməmək mümkün deyildi. Əvvəla, kənddə Hacıdan başqa ikinci feldşer yoxdu; bütün evlər kimi, o, hərdən İsfəndiyar kişinin evinə də ayaq basmağa məcbur idi. Bundan başqa, qoca dəmirçi özü Hacı ilə tez-tez görüşməyə, kef-əhval soruşmağa başlamışdı. Feldşerlə söhbəti qurtarandan sonra qoca ayaqlarını götürüb-qoyub “öhö-öhö” eləyib, təsbehini çıqqıldada-çıqqıldada, elə bil Hacının ona nə isə mühüm bir şey deməsini gözləyirdi. Hacı isə susurdu.

İllər keçdi. Əhvalat köhnəldi. Pərinin bir-birinin ardınca iki qızı oldu, Tubunun bir cüt ekiz oğlu. Artıq qırx yaşına toxtamış feldşer elçilik üçün daha nə İsfəndiyar kişiyə ağız açdı, nə də başqasına. Hacı indi həmişəkindən də sakit, həmişəkindən də fağırhal görünürdü. Hər dəfə feldşerə baxanda İsfəndiyar kişi elə bil çarəsiz dərdə düşmüş bir adama baxırdı, xüsusən oğlanları gedəndən sonra, özünün etiraf etdiyi kimi ürəyi kövrəlmiş qoca, feldşerin məzlumluğuna dözə bilmirdi.

Axşamlar Hacı qamışlıqlarda qurşağa qədər suya girib bataqlığa əhəng səpələyəndə, İsfəndiyar kişi hərdən gedib ona kömək edirdi: ot, həşən aparıb, yandırıb qamışlığa tüstü buraxırdı ki, adamın saç-saqqalının arasına, ağız-burnuna dolan ağcaqanad feldşeri çox təntiməsin. Yaxud Hacının qoltuğundakı kisə boşalanda, qoca onun qayıtmasını gözləməyib, quru taladakı əhəng kisələrindən birini götürüb suya girirdi.

Gecələr Hacı ambulatoriyanın qabağında primus yandırıb kartof qızardanda, qayğanaq bişirəndə İsfəndiyar kişi gedib, dinməz-söyləməz primusu söndürürdü. Bu o deməkdi ki, feldşer bu gecə şamı İsfəndiyar kişinin evində yeməlidir. Həmişə olduğu kimi, Hacı qızarıb qan-tərə batsa da, boynunu burub, dönə-dönə üzr istəyib, qıçlarının sızıldadığını, bu dəqiqə uzanıb yatmasa, dincəlməsə sabah sahələrin, tarla düşərgələrinin arasında gəzə bilməyəcəyini bəhanə gətirsə də, qoca əl çəkmirdi, feldşeri zorla sürüyüb aparırdı. Həyətdə, qovağın altında palaz salıb otururdular, gəlinlər elə buradaca süfrə açırdılar. Yeyib-içəndən sonra, qoca özü qalxıb sazı gətirirdi. Köynəkdən çıxarıb asta-asta “dınqıldatmağa” başlayırdı.

…Aram-aram isti mehli, sakit iyun axşamı idi. Gəlinlər içəridə, taxtın üstündə yer döşəyirdilər. İsfəndiyar kişi kom-kom çayırları qaralan geniş, hamar həyətin üzərini bütün qapamış sıx yarpaqlı budaqların altında, bir neçə yerdə təzək yandırıb, kürəyini qovağın gövdəsinə söykəyib oturmuşdu. Təzəklərin acı tüstüsü budaqların altına yayıldıqca qocanın başının dövrəsində ağcaqanadların vızıltısı azalırdı. Pəncərə arxasında piltəsi aşağı

çəkilmiş yeddilik lampanın solğun işığında cərgə ilə dirəkləri bozaran balkonda qaranquşlar hərdən yuxulu-yuxulu civildəşirdilər. Qovağın başında, nədənsə yuvasına hər il tək gəlib tək də gedən hacıleylək dimdiyini şaqqıldadırdı. İsfəndiyar kişi uzun illərdən bəri alışdığı bu səsləri demək olar ki, heç eşitmədən, yorğun-arğın, qəmli-qüssəli oturub, yenə də oğullarını düşünürdü. Cavanların ikisini də birdən sinəsinə sıxıb kövrək səslə nə isə deyən pəhləvanı xatırlayır, Rəhmanın əvvəlcə kiçik qardaşının ekizlərini, sonra da öz qızlarını, Bəhmənin isə əvvəlcə böyük qardaşının qızlarını, sonra da öz ekizlərini öpdüyünü elə bil bu dəqiqə qarşısında görürdü.

Qoca oğlullarını min-milyon yerdə, müxtəlif yaşlarında, min-milyon vəziyyətlərdə—evdə, süfrə başında, səhər-səhər su quyusunun üstündə qurşaqdan yuxarı soyunub bir-birinin boynuna, kürəyinə vedrədən su töküb şappır-şuppur yuyunan yerdə, “köhnə dudman”da görük basan, çəkic vuran yerdə və sair vəziyyətlərdə xatırlaya bilərdi. Axır vaxtlar isə onları yalnız həmin məşhur pəhləvanla əlaqədar vəziyyətlərdə görürdü. İsfəndiyar kişiyə elə gəlirdi ki, əgər pəhləvan Rəhmanla Bəhməni keçən il yazın bu vaxtı, yəni hələ müharibə başlanmamış Bakıya aparmasaydı, əgər oğlanları müharibə başlanan günü səfərbərliyə alınmayıb, qarışıqlığa düşməsəydilər, kənddən başqa gedənlərin çoxu kimi, indi bəlkə onlardan da məktub gələrdi.

Cəmi bir ay “ras-dva” keçib onca gün “zapasda” qalıb, “qırx deyən günü hamamlanıb dava paltarı geymişdilər.” Belə tələsikliyə düşməsəydilər, başqaları kimi, məsələn, Tat Seyidin, alverçi Xeyrənin oğlanları kimi, indi onlardan da məktub gələrdi. Kəndə pəhləvan gəlməsi də, Rəhmanla Bəhmənin ortalığa çıxıb bellərinə dəmir dolamaları da, hamısı elə bil taleyin işi idi. Amma İsfəndiyar kişi taleyi ilə barışa bilmirdi. Kürəyini qovağın gövdəsinə söykəyib oturduğu halda, tez-tez darıxqanlıqla qımıldanıb, köksünü ötürüb, həyətdə halqa-halqa, buruq-buruq olub yatan tüstü layı altından tək-tük işıqları parıldayan kəndə, uzaq, qaranlıq çöllərə baxırdı. Fikirləşirdi ki, son vaxtlar nədənsə ürəyi birtəhərdir. Görəsən nədəndir? Bəlkə nə isə bir şey olacaq, nə isə bir xəbər çıxacaq?

Kənddə arvadların arasında xısın-xısın söhbət gəzirdi. “Yazıq dəmirçi, bir-birindən cavan gəlinlər içində qalıb.” “Gün işığında gəlinlərin üzünə baxmır, deyir yanaqlarının solğunluğunu görmək istəmirəm.” “Qaranlıq qarışanacan idarədə oturur, evə gedəndə də, ta gəlinlər yatanacan həyətdə oturur, içəri baş salammır.” “Belə getsə üzüləcək kişi.”

İdarənin qabağında, dəhlizində arvadlar arxasınca baxıb xısın-xısın danışanda, İsfəndiyar kişi, onların məhz belə sözlər dediklərinə şübhə etmirdi. Deyilənlərin hamısı doğru idi. Amma neyləmək olardı? Bəlkə bu həyat tərzini dəyişmək lazımdı? Necə, nə yolla? Oğlanları gedəndən sonra dəmirçixanaya qayıtmaq istədiyini deyəndə, idarə heyətində heç kəs razı olmadı. Kolxoz sədri, Çeteze ləqəbli Çeteze İsgəndər dedi: “Yetmiş yaşında, əlinə çəkicmi götürəcəksən, a kişi!” Sovet sədri Qılınc Qurban təpindi: “Bizi biabır eləmə görək, sən allah, İsfəndiyar kişi!” Kəndə başqa yerdən dəmirçi gətirmək istədilər. Amma İsfəndiyar kişinin fikri qəti idi. “Həm camaata azdan-çoxdan xeyrim dəyər, həm də özümün başım qarışar,”—dedi və elə ordan birbaş “köhnə dudman”ın qapısını açmağa

getdi. Bundan başqa neyləmək olardı? “Başım qarışsın” deyib, bütün gecəni də səhərə qədər dəmir döysün?..

Qoca yenə də səbirsiz, darıxqan, yerində qımıldanıb, kəndin işıqlarına baxdı. Burda, bu sallaq budaqların altında, axı təzək tüstüsü arasında saatlarla oturmaq da adamı lap təngə gətirir. Bəlkə durub Qurban kişinin—Sovet sədrinin yanına getsin, yerli hökumətin əli ilə oğlanlarının “çastına” məktub yazdırsın, xəbər tələb etsin? Yaxud, bəlkə elə bu dəqiqə durub dəmir yolu vağzalına getsin, rayona yola düşsün, voyenkom Talıbovun öz əli ilə məktub yazdırsın?..

Qoca öz fikirlərinə necə qapılmışdısa, qaranlıqda bir yanının üstünə çökə-çökə, tərəddüdlə, dayana-dayana gəlib salam verib, beş addım aralıda, su quyusunun dikdirinin kənarında oturan adama diqqət yetirməmişdi. Yalnız feldşer ayağa qalxıb, həmişəkitək yorğun və elə bil, nədənsə, xəcalətli səslə “Gecən xeyrə qalsın” deyəndə qoca onu gördü.

—Hacı?.. Ay oğul, sənsənmi? Çoxdanmı burdasan? Dayan görüm!..

Feldşer dayanmadı.

—Evdə darıxdım, gəldim ki, bir az saza qulaq asım, İsfəndiyar əmi… Gecən xeyrə qalsın.

Qoca onun dalınca bir neçə addım atdı.

—Daha saz çalmıyacam, oğul, başına dönüm. Əhd eləmişəm, Bəhmən gələnə qədər saz köynəkdən çıxmayacaq,—dedi.

Nə üçün əhd elədiyini isə yenə demədi.

Feldşer çox məyus gedirdi.

İsfəndiyar kişi bir neçə addım da atdı. Bəlkə desin, izah eləsin?.. Bu birinci dəfə idi ki, Hacı onun qapısına təklifsiz gəlmişdi. Bu yaxşı hadisə idi. Bu o deməkdi ki, Hacı daha Pəri ilə Tubunun qayınatasından qaçıb gizlənmək istəmir, daha sıxıntı çəkmir, yarası köhnəlib, bəlkə də sağalıb. İsfəndiyar kişi buna sevinirdi. Amma eyni zamanda narahatdı. Feldşerin xətrinə dəymişdi. O cür sakit, nuripək, o cür çalışqan və bəxtsiz adamın xətrinə dəymişdi. Bəlkə geri çağırsın, desin gəl otur, saz da çalım, söz də oxuyum? Bəs əhdi necə olsun?.. İsfəndiyar kişi dayanıb, qamış damlı seyrək evlərin, qarğıdalı əkinlərinin arasında bozaran geniş torpaq yolda ağır-ağır əyilib dikələn balaca qaraltının arxasınca baxdı və öz əhdi barədə fikirləşdi.

Bu əhd onun bir yuxusu ilə bağlı idi. “Köhnə dudman”da kətildə oturub körük basdığı yerdəcə mürgüləyib yuxu görmüşdü. Daha doğrusu, heç nə görməyib ancaq Bəhmənin səsini eşitmişdi: “Günlərin birində idarədən evə dönəndə qulağına saz səsi gəlsə, bil ki,

mən qayıtmışam, baba.” Qoca diksinib oyanmış və qət etmişdi ki, bu sözlərdə nə isə bir hikmət var. İkinci dəfə mürgüləyib yenə Bəhmənin səsini eşitmişdi: “Saz kökdən düşsə, bil ki, mənim başımda qaranlıq var, baba.” Qoca yenə diksinib oyanmış və dəmirçixananın qapısını açıq qoyub evə yüyürmüşdü. Sazı köynəkdən çıxarıb, barmaqları titrəyə-titrəyə simlərə toxunmuşdu. Bir il bundan qabaq Bəhmənin əlləri ilə çəkilib köklənmiş simlərin bu bir il ərzində kökdən düşməməsi mümkün olan şeydi, amma bu da qocaya hikmətli bir əlamət kimi görünmüşdü. Elə həmin gün də sazı divardan asıb, əl vurmağı qadağan etmişdi. O gündən şirmayılı saz, İsfəndiyar kişinin təsəvvüründə bir növ tilsimlənmişdi. Hər axşam evinə qayıdanda qoca hələ lap uzaqdan gözlərini qapıya dikib, bəzən hətta nəfəs çəkmədən dinləyib, tilsimin açılmasını gözləyirdi.

Ambulatoriyanın qabağında “primus”un sarımtılı alovu parıldayırdı. Feldşer tək-tənha, dizlərini qucaqlayıb oturmuşdu. Evlərin, qarğıdalı əkinlərinin aralarında, kimsəsiz yolda itlər veyillənirdilər. İsfəndiyar kişi isə hələ də dayanıb fikirləşirdi. Hacının dalınca getsinmi, getməsinmi? Əhdinin səbəbini desinmi, deməsinmi?

Axırda qərara aldı ki, deməsə yaxşıdır. Qocaya elə gəldi ki, desə, dəmirçixanada eşitdiyi o səsin, o sözlərin mənasına, hikmətinə nə isə bir xətər dəyəcək.

4

Kanalın ətrafında bölük-bölük ağaran gölməçələrdə, bol şehdən bozlanmış çəmənliyin ortasında tala-tala qaralan göy qamışlıqlarda qurbağalar quruldaşırdı. Bir az o yanda, dəmir yolu boyunca solğun bir fənər işığı axıb gedirdi. Drezen keçirdi. Qurbağaların qarıltısından təkərlərin səsi eşidilmirdi. Arada necə oldusa qurbağaların hay-küyü azaldı, drezenin uğultusu, təkərlərinin taqqıltısı eşidildi. Sonra birdən işıq yavaşıyıb dayandı. “Məhərin budkası”nın, yəni keçidin yanında, qırmızı simaforun altında drezendən kimsə düşdü. Göyün üzünə bulud gəlib, qaranlıq qatılaşsa da, fənər relslərin üstündə ancaq bir tikə yeri işıqlandırsa da, İsfəndiyar kişi o qaraltının sürətlə kəndə yönəldiyini gördü.

Məhərin budkasının yanında drezen dayanması, drezendən adam düşüb kəndə gəlməsi nadir hadisə deyildi. Alverçi Xeyrə, yaxud yetim poçtalyon qız vaxtlı-vaxtsız vağzala gedəndə, drezendə işləyən oğlana pul verib həmişə onunla qayıdırdılar. Hərdən stansiyada bir neçə saatlığa, bəzən bir günlüyə eşalon dayanırdı, dəmir yoluna, vağzala yaxın pambıq əkinlərində işləyən arvadlar ketmənləri atıb kəndə yüyürürdülər, süd, qatıq, ərik, alça aparıb əsgərlərə paylayırdılar, gecikib qaranlığa düşəndə onlar da drezenə doluşub qayıdırdılar… Başqa vaxtlar, gecə yarısında keçidə drezen gəlməsinə İsfəndiyar kişi o qədər də əhəmiyyət verməzdi. İndi bəs niyə belə diqqətlə baxdı, nədən birtəhər oldu? Məsafənin xeyli uzaqlığına və düşən adamın yalnız qaraltısını gördüyünə baxmayaraq, İsfəndiyar kişiyə elə gəldi ki, onun əynində əsgər paltarı var. O adam Məhərin budkasının işıqlı pəncərəsinin qabağından ötəndə hətta belində arxa çantasını gördü.

Qoca qaranlıqda cığır-filan seçmədən, üzünü birbaş Məhərin budkası tərəfə tutub, burda hər addımda bitən xırda ulğun kollarına, keçən ildən qalma yovşan və biyan köklərinə

ilişə-ilişə addımladı. Xeyli gedəndən sonra dayanıb, ürəyinin döyüntüsündən başqa heç nə eşitməsə də, ucadan çağırdı:
—Ay adam! A gələn!.. Ay oğul, kimsən?

Dinlədi. Qaranlıqda qurbağaların qurultusundan və qocanın qulaqları dibində fırlanan ağcaqanadların vızıltısından savayı heç nə eşidilmirdi.

—A gələn, səsini niyə çıxartmırsan?.. Yenə də heç nə eşidilmədi.

Birdən su şırıldadı. Yüz addımlıqda kimsə gölməçəyə düşdü. İsfəndiyar kişi bunun bayaqkı əsgər olduğuna şübhə etmədi. Əsgər tələsirdi. Cığırı bir yanda qoyub, dizə qədər suya girib, qar-qamışı xışdaya-xışdaya kəsəsinə kəndə gedirdi. Bir tərəfi yəqin ki, buludun altına düşüb kölgələnmiş, o biri tərəfi isə süd kimi ağaran gölməçənin içində elə bil at çapırdı.

—Ay adam! Ay oğul! Bəridən gəl, bəridən!.. —Qocanın səsi qırılıb zəiflədi.—Nə yaman tələsirsən, ay anan-bacın ölsün! Kimsən, kimi sevindirməyə gedirsən, ay həsrətli oğlan?!

"Kimin oğlusan, kimin qardaşısan, kimin ərisən? Hansı bəxtəvərin evinə gedirsən?.. Bəlkə…" Bu "bəlkə"-nin dalınca gələn sözləri deməyə İsfəndiyar kişinin cəsarəti çatmadı.

Əsgər sürətlə, şarap-şurupla gölməçəni adlayıb keçdi. Uzaqda yəqin ki, içinə su dolmuş çəkmələrinin çappır-çuppuru eşidildi.

İsfəndiyar kişi geri döndü. Ancaq tələsmədi. Əksinə, qalın çəmən otlarının, biyanların arasında çəkmələrini sürüyə-sürüyə, yavaş-yavaş bir neçə addım atıb dayandı, kəndə qulaq verdi. Gecənin bu vaxtı kəndə əsgər gələndə və ya kimdənsə şad xəbər çıxanda dərhal məlum olurdu, kənddə qışqırışma, muştuluqlama, ağlaşma, gülüşmə başlanırdı, adamların səs-küyü itlərin hürüşməsinə qarışırdı. Bəs indi niyə sakitlikdi? Bəlkə qocanın gözü alacalanmışdı?

Addım-addım kəndə yaxınlaşıb dayanırdı, dinləyirdi, yenidən yeriyib, yenə dayanırdı, bir də dinləyirdi. Sifətini soyuq tər basmışdı: ürəyi də elə bil hərdən dayanıb, qaranlığa qulaq kəsilirdi.

Hardasa at fınxırdı. Yüyənin gəmi atın dişlərinə toxunub cingildədi. Gölməçədəki şappıltıdan sonra səslərini kəsmiş qurbağalar orda-burda quruldamağa başladılar. Kəndin ucqarında, ulduzları sayrışan bir parça buludsuz göy altında nəhəng ot tayasıtək qaralan qovağın başında hacıleylək dimdiyini şaqqıldatdı. Kənddən, camaatdan isə şadlıq bildirən bir şey eşidilmədi.

At bu dəfə lap yaxında fınxırdı. İsfəndiyar kişi baxıb, yastı rus yəhərinin ortasında dim-dik oturmuş xırdaca qaraltısından Qılınc Qurbanı tanıdı.

—A Qurban, sənsənmi?
—İsfəndiyar kişi? Gecə quşu təki bu vədə çöldə-biyabanda nə gəzirsən, a kişi? Dana, buzov itiribsən, nədi?
—Məhərin budkasının yanında drizindən adam düşdü. Ona baxırdım.
—Nə adamdı?
—Əsgərə oxşatdım, vayenniyə… Özü də bu yana gəldi, bizim kəndə sarı… Belində arxa çantası. Mən bilən əsgəriydi, a Qurban kişi. Qoca olsam da, gözüm işıqlıdı. Gərək zənnim məni aldatmasın.

Qurban kişinin damağında papiros közərib xırdaca burnunun ucunu və qırışlar arasında iri, düşüncəli gözlərini işıldatdı. Sovet sədri, qaranlıqda qoxusu düzənliyi götürmüş göy biyanların ara-bərasində burnunu gəzdirib otlardan xırpa-xırp qoparaq ağzında yüyəninin gəmini cingildədə-cingildədə çeynəyən atın başını çəkib kəndə tərəf baxdı.

—Əsgər gələ, özü də kənd belə lal-dinməz ola?
—Mən də elə ona mat qalmışam, a Qurban.
—Yəqin gözün alacalanıb.
—Olar, olar… Vallah, nə desən olar…—İsfəndiyar kişi səsində titrəyiş hiss edib, bir-iki ağız “ühü-ühü” elədi.—Görükür doğrudan gözüm alacalanıb.
—Yeri yıxıl yat, yeri!—Qurban kişi atını tərpətdi.—Mən də deyirəm, gecə vaxtı görəsən bu nə qaraltıdı burda. Yeri yıxıl yat.

İsfəndiyar kişinin fikri hələ də kənddə idi. Sovet sədrinin xeyli gedəndən sonra cilovu çəkib atın başını geri döndərdiyini, papirosun közərtisindən işıldayan gözlərlə ona necə diqqətlə baxdığını hiss etmirdi, axı, əsgəri tamamilə aydınca görmüşdü. Əynində paltarını, belində arxa çantasını, hətta başında pilotkasını da seçmişdi. Bu dərəcədə də göz alacalanar?.. Əsgər yerə girdi, göyə çıxdı, hara qeyb oldu?!

Atın göy ot qoxuyan isti nəfəsi yan tərəfdən qulağına və sifətinə vurdu, İsfəndiyar kişi diksinib, başını qaldıranda yenə Sovet sədrini gördü.

Qılınc Qurban hirslənmişdi.

—Sənnən deyiləmmi, a kişi? Niyə dillənmirsən?!

İsfəndiyar kişinin sifəti alışıb yanırdı. Əyilib əlini ota çəkdi, buz soyuqluğunda şehdən islanmış ovcunu alnına sürtdü.

—Üstünə yüngüllük, əhvalım yaman birtəhərdi, a Qurban. Nə deyirdin, eşidəmmədim?
—Deyirəm, o axsaq ferşil sənin eviyin böyründə-başında nə yaman hərlənir?
—Ferşil? Nə olar hərlənəndə, a Qurban?
—Deyir guya sən özün tez-tez evə çağırırsan onu. Doğrudumu?

İsfəndiyar kişi bu gözlənilməz söhbətlə necə maraqlandısa, hətta drezendən düşən əsgəri də unutdu.

—Sən bunu niyə xəbər alırsan ki, a Qurban, başına dönüm?
—Onu bir də evinə çağırma!
—Bıy! Bu nə söhbətdi, a Qurban?
—Hər halda boş söhbət deyil. Ehtiyatlı ol, İsfəndiyar kişi, xataya salmasın bizi o axsaq gədə! Özün də get yıxıl yat! Gecənin bu vaxtı çöllü-biyabanda gəzib evini kişisiz qoyma!

Qurban kişi sərt hərəkətlə cilovu çəkib, dabanlarını atın böyürlərinə çaxdı. Nal səsləri yumşaq nəm torpaq üstündə küt tappıltılarla sürətlə uzaqlaşdı. İsfəndiyar kişinin fikri də bu tappıltıların arxasınca getdi.

5

Sovet sədri Qurban kişi—Qılınc Qurban balaca, arıq-quru bir kişi idi. Amma yeriyəndə alov kimi yeriyirdi. Danışanda od kimi danışırdı. Kənddə söyləyirdilər ki, bu balaca kişi vaxtı ilə hər əlində bir mauzer, təkbaşına yüz qaçağın üstünə gedirmiş. Gah çoban, gah dərviş, gah da dilənçi libasında, qaçaqlara lap yaxınlaşandan sonra, birdən cır-cındırının altından mauzerləri çıxarıb, özünü daşın dalına verərmiş. İsfəndiyar kişi bu deyilənlərin heç birini öz gözü ilə görməmişdi, ancaq hamısına inanırdı. Çünki Qurban kişinin indisinə bələd idi.

Onun fikrincə Qurban kişi əvəzsiz adamdı. Bu əvəzsiz adam gündüzlər kənddə gözə dəymirdi. Ya idarəsində oturur, ya da evində yatırdı. Gecələr isə, xüsusən müharibə başlanandan bəri, bəzən, hətta səhərə qədər at belində olurdu. Kəndin ara-bərəsində, dörd-dövrəsində çərx vururdu. Gecənin bir aləmində, qaranlıq küçələrin hansındansa guruldayıb keçən nal səsləri eşidiləndə oyaq olanlar deyirdilər: “Qılınc genə qından çıxıb. Görəsən kimi kəsməyə getdi.” Bunu şəksiz-şübhəsiz hökm kimi deyirdilər. Çünki Qurban kişi hər saatda qından çıxmır, çıxanda isə mütləq kəsirdi. Məhz bu xasiyyətinə görə çoxdandı ki, kənddə oğru-əyri yox idi.

Müharibə başlayalı ətraf kəndlərdən, dəmir yolu vağzalından ara-sıra bəd xəbərlər gəlirdi. “Anbarı yarıblar,” “İlxıdan at aparıblar,” “Vaqonun qapısını sındırıb taxıl çıxarıblar” və sair. Qurban kişinin sovetliyində—üç para kənddə isə əmin-amanlıq idi. Burda arvadlar ərlərini Qılınc Qurbanla qorxudurdular. Uşaqlar dalaşanda bir-birini Qılınc Qurbanla hədələyirdilər. Günahkar olan tərəf dərhal səsini xırp kəsirdi. Çünki əks təqdirdə, Qurban kişi qından çıxa bilərdi. Bu balaca, arıq-quru kişi, ədalət mücəssəməsinə çevrilib, necə deyərlər, ümumxalq məhəbbəti qazanmışdı. Lakin, təkcə asıb-kəsməklə yox. Bütün kənddə elə bir ev, elə bir həyət yoxdu ki, orda heç olmasa həftədə bir dəfə Qurban kişinin səsi eşidilməsin. Elə bir əsgər ailəsi tapılardımı ki, fikri-zikri, dərdi-azarı Qurban kişidən gizlin olsun? Çox çətin, tək-tük. Bəlkə də heç tapılmazdı. Bu və ya başqa əsgər ailəsində buğda çörəyi və ya qarğıdalı cadı yeyildiyi də, bu və ya başqa əsgər arvadının harda

addımını necə atdığı da, hər şey Sovet sədrinin elə bil ovcuna yazılmışdı, əlini açanda oxuyurdu. Əgər Qurban kişi kiminsə həyətindən ayağını kəsirdisə, deməli, bunun səbəbi vardı. Qurban kişi kiminsə salamını almırdısa, deməli, bunun da səbəbi vardı. Sovet sədrinin bircə addımı və ya bircə kəlməsi də mənasız hesab olunmurdu. Elə buna görə də İsfəndiyar kişi onun arxasınca baxa-baxa qaldı. Drezendən düşən əsgəri tamam unutdu.

Evlərin bozaran qamış damları arasında Qurban kişinin özü kimi alçacıq və özü kimi ayaqdan iti Boz atının qaraltısı görünüb yox oldu. "Ehtiyatlı ol, İsfəndiyar kişi, xataya salmasın bizi bu axsaq gədə!" Bu nə söz idi, bu nə eyham idi?.. İsfəndiyar kişi hiss etdi ki, bu saatca Qurbanı görməsə, soruşub bu qəribə eyhamın, şübhəli söhbətin səbəbini öyrənməsə, səhərə qədər gözünə yuxu getməyəcək.

Yaxşı ki, nal səsləri yenidən eşidildi. Eyni ilə bayaqkı kimi, Qurban kişi yenə də qəfilcə qaranlıqdan peyda olub, atının başını çəkdi.

—A kişi, genə sənsənmi bu?

İsfəndiyar kişi yeriyib əlini yüyənin qanadına atdı. Ürəyi tez-tez sıxılıb açılıb, ağır-ağır, üzüntü ilə döyünürdü. Amma qoca həmin eyham barədə birbaşa söz açmaq istəmədi.

—Xeyir ola, nə yaman gəşt eləyirsən, a Qurban?
—Onu izin ver əvvəlcə səndən xəbər alım, İsfəndiyar kişi. Mənim gecələr gəşt eləməyim təzə şey deyil, bəndə-bərəyə baxmasam canım rahat olmur. Mənim azarım çoxdan bəllidi. Amma bax, dəmirçi İsfəndiyarın gündüz axşamacan zindan döyəcləyib, gecələr də çöllü-biyabanda gəşt eləməyini başa düşəmmirəm.
—Mən ki dedim, a Qurban.
—Nə dedin?
—Drizindən adam düşdü, demədimmi?
—İzin ver inanmayım, İsfəndiyar kişi.
—Bıy! Əstağfürullah! Mən saç-saqqalda adama inanmırsanmı, a Qurban, başına dönüm!
—Vayenni vremyadı, zamana xarabdı. İsfəndiyar kişi, iş, dərd-azar çoxalıb, dolanmaq çətinləşib, lap sən saç-saqqalda adamın da, baxırsan ki, nəsə bir xəlvət işi var. Mən necə ki, bir yerli hökumət, belə şeylərin yanından düz keçəmmərəm, İsfəndiyar kişi.
—Ay oğul, mənim nə xəlvət işim?!
—Niyə qax-qurud olub qalıbsan burda?
—Başına dönüm, demədimmi? Drizindən adam…
—Adam düşdü də, çıxdı getdi də, İsfəndiyar kişi!.. Sən bilirsənmi, şəhərlərdə gecə saat on ikidən sonra komendantnı çasdı?
—Nə, nə?
—Yəni gecə saat on ikidən sonra eşikdə qalmaq qadağandı.

İsfəndiyar kişinin, necə deyərlər, əli-ayağı yerdən üzüldü.

—A Qurban, başına dönüm, onun bizə nə dəxli?
—Bizə, əlbəttə, dəxli yoxdu. Kəndistanın zakonu ayrıdı. Ancaq orası da var ki, dava vaxtı ispalkom da elə bir növ komendant təki olub, İsfəndiyar kişi. Genə deyirəm, gecənin bu vaxtı eşikdə adam görəndə yanından düz keçəmmirəm. Deyəmməzsənmi görüm nədi sənin dərdin?

İsfəndiyar kişinin fikri haçalanmışdı. Nə idi demək istədiyi? Niyə yadından çıxdı?

—Dərd deyəndə… Allah sənə dərd verməsin, a Qurban, dərdim çoxdu, oğul…

Nəhayət yadına düşdü:
—Bayaq o nə sözüydü dedin, başına dönüm, o nə eyhamıydı? Ehtiyatlı ol, deyirsən, xataya salmasın bizi o axsaq ferşil… Dedin, atını qamçıladın getdin, mən də ki, özün demişkən, qax-qurud olub qaldım burda. Bayaqdan bəri kəndin arasında qaraltına baxa-baxa elə onun fikrini eləyirəm ki, bu nə eyhamdı Qurban vurdu? Oxunu atıb, yayını gizlətmə, başına dönüm!..

Qurban kişi pencəyinin cibindən iri qutu və kibrit çıxarıb papiros yandırdı. Kibritin alovunda burnunun üstünə, qulaqlarının dibinə qədər xırda-xırda qırışlarla örtülmüş, arıq, qarayanıq sifəti işıqlandı. Bu bir əlcə, çirkin sifətə yabançı kimi görünən iri, qayğılı gözləri parıldadı.

—Səndən bir söz xəbər alım… İsfəndiyar kişi.
—Buyur, buyur, başına dönüm.
—Mənim ikidən-birdən əsassız söz danışdığımı eşidibsənmi?
—Yadıma gəlmir.
—Gəlmirsə, deməli, indi də əsassız danışmıram.

Sovet sədri yenə cilovu dartdı, atın otunu çeynəyib qurtarmasını, yəni gəmin cingiltisinin kəsilməsini gözlədi. Cingilti kəsilib, tamam sakitlik çökəndə, yəhərdə burulub dörd yanına baxdı.

—Gecə vaxtı bizim bu düzdə adamın pıçıltısı da bir verstliyə gedir. Bəlkə gedək evdə söhbət eləyək?

İsfəndiyar kişi səbirsizlikdən boğulurdu.

—Mənim ev-eşiyim sənə qurbandı. Amma, başına dönüm, bir de görüm axı nə əhvalatdı, a Qurban? Bu biyabanda kim eşidəcək? De görüm!
—Qulağını bəri tut… Axsaq felşirdən mənim gözüm su içmir, İsfəndiyar kişi. Düz adam deyil o gədə.
—Bıy! nə danışdığındı, a Qurban?!
—İstəyirsən lap açıq danışım?

—Əlbəttə, əlbəttə!
—Ferşil barədə qulağıma söz dəyib.
—Nə söz?
—Deyirmiş, davadan qabaq axsaqlığıma görə mənə gələn olmadı, allah mənim allahımdı, dava saldı ki, dünya axsaqnan dolsun. Bundan sonra bayramımdı, deyirmiş, qızların, gəlinlərin harda göyçəyi var, onu alacam!

İsfəndiyar kişi fikirləşmədən, qətiyyətlə əlini yellədi.

—Bekar sözdü! Görəsən hansı dili qurumuş uydurub.
—Deməli, inanmırsan?
—Dünyasında inanmaram! Ferşilin dilindən elə söz çıxmaz!

Qurban kişi papirosunu sümürə-sümürə yenə o yan-bu yana baxdı.

—İstəyirsən bir az da açıq danışım?

İsfəndiyar kişi başını dik qaldırıb gözlədi.

—De görüm…
—Zamana xarabdı, İsfəndiyar kişi, bu dava zəhrimar bir para adamı yaman xarab eləyib. Sən hamını öz ürəyinnən ölçmə.
—Bu açıq danışmaq olmadı.

Qurban kişi nə isə qət etmiş kimi, sərt hərəkətlə papirosu yerə atdı.

—Yaxşı, lap açıq olsun! O axsaq gədənin sənin evində gözü var, İsfəndiyar kişi.
—Mənim evimdə?
—Sənin gəlinlərində…

İsfəndiyar kişi bayaqdan bəri məhz bu sözləri eşidəcəyini hiss edirdi. Sovet sədrinin vaxtı ilə olub keçmiş əhvalatı—Hacının elçilik söhbətini hardansa eşitdiyini güman edir və indi məhz o köhnə əhvalatı xatırladacağını gözləyirdi.

—Özünə bəllidi ki, mənim sənə xüsusi hörmətim var, İsfəndiyar kişi…—Sovet sədri yəhərdə yanakı oturub, fikirli, qayğılı səslə, astadan davam edirdi.—Neçə illərdi çəkic vurursan. Bu kənddə elə bir təkər şini tapmaq olmaz ki, ona sənin əlin dəyməmiş olsun. Ketmən vuranlarımızın əlinin ketmənisən, yer sulayanların əlinin lapatkasısan. Ustalığından savayı, qoşa əsgər atasısan. Ona görə də sənin namusun mənim namusumdu, İsfəndiyar kişi. Mənim borcumdu ki, sənin gəlinləriyin namusunu göz bəbəyim təki qoruyum!

Qoca elə bil nədənsə ehtiyatlana-ehtiyatlana, yavaş-yavaş əlini qaldırıb yəhərin qaşında duran balaca, quru əlin üstünə qoydu.

—Əsas… əsas de, görüm ağlıma batırmı?

Bu, deyəsən Qurban kişinin xoşuna gəlmədi. Əlini qocanın əlinin altından çəkdi.

—Mən sənə bayaq dedim, İsfəndiyar kişi.
—Nə dedin, başına dönüm?
—Dedim ki, mən əsassız söz danışmaram!

Qocanın nəfəsi təngiyirdi. İndi nə isə müsibətli bir xəbər eşidəcəyini kəsdirib, əzab-işgəncə ilə özünü toxtaq saxlamağa çalışırdı.

—Deyirsən… deyirsən yanı göz-qaş eləyib bizim gəlinlərə?
—Yox, onu görməmişəm. Vicdanıma ləkə salammaram, İsfəndiyar kişi, böhtan deyəmmərəm.
—Bə nə… bə nə görübsən, başına dönüm? Məni niyə üzürsən? Uşaq-navaqlıq ha deyiləm, mənnən altdan-üstdən niyə danışırsan, a Qurban? Ferşili mən namuslu adam bilirəm. Sən mənim camaata qulluğuma qiymət qoyursan, çox sağ ol, ömrün uzun olsun, bu dünya durduqca sən də durasan, başına dönüm! Mən də özlüyümdə ferşilin zəhmətinə qiymət qoymuşam. Neçə vaxtdı mən onnan ülfət bağlamışam.

Yazığın, fağırın, baxtıqaranın biridi. Bir mən bilirəm o necə baxtıqara adamdı! Ha çalışıram üzü gülsün, olmur ki, olmur! Yazbaşı idarədə söhbət düşdü, dedilər bir at verək, manqaların arasında taytımasın. Yəhərli-yüyənli atı ambulatoriyanın qabağında görəndə yazığın sevindiyindən gözü doldu. Ancaq nə olsun ki, fələk vurdu yan saldı. Bu yanda, qamışlıqda suya əhəng səpəndə bir də baxdıq ki, atın başı şişib kötüyə dönüb! Ömründə eşidibsənmi ki, su ilanının zəhəri olsun? Amma ferşilin atını vuranda gəldi su ilanı da zəhərli oldu. At öləndən sonra mən idarədə təklif elədim, dedim, təzəsini verək. Ancaq…

—Ancaq ferşil götürmədi. Dedi: “Mən baxtsız adamam, o atı ilan vurdu, bunu da canavar yeyəcək,” hə?—Qurban kişi qocanın sözünü kəsib, narazılıqla yəhərin üstündə yan-yörəsinə baxdı.—Bunu mənə niyə danışırsan, a kişi?

Bu axşam həddindən çox  həyəcanlandığındandımı, yorğunluqdandımı, nədənsə, qocanın yenə də fikri dumanlanmışdı. Qurban kişinin qara meşin şapkasının uzun günlüyü altında tünd qaraya çalan sifətinə baxıb gözlərini döydü.

—Vallah, heç özüm də bilmirəm niyə danışıram, a Qurban, başına dönüm!
—Qəribə adamsan, İsfəndiyar kişi. Mən sənə deyirəm o axsaq gədə düz adam deyil, namus məsələsindən danışıram, sən də onun tərəfini saxlayırsan! Nə təhər başa düşək bunu?

Qoca susurdu, hərdən, qeyri-iradi, sifətindən, boyun-boğazından ağcaqanadları qova-qova yerə baxırdı. Doğrudan da, əgər söhbət namus söhbəti idisə, əgər Hacı doğrudan da onun gəlinlərinə əyri gözlə baxırdısa, bəs o, nə üçün feldşeri bu qədər həyəcanla müdafiə edirdi?

Qoca düşündü… Düşündü və nə qədər qəribə olsa da, həqiqət belədir ki, feldşerlə ünsiyyətinin əsas səbəbini yalnız indicə başa düşdü. Dərk etdi ki, axı oğlanları gedəndən sonra Hacı ilə ünsiyyəti məhz ona görə dərinləşdirməyə çalışırdı ki, dostluğu ayağlayıb onun gəlinlərinə əyri gözlə baxmasın. Qoca bunu da yalnız indicə dərk etdi ki, feldşer onu duyurdu. Məhz duyduğuna görə də onunla üz-üzə gələndə xəcalət çəkir, qan-tər tökürdü.

Qurban kişi təzə papiros yandırıb tez-tez sümürürdü. Deyəsən papirosa ehtiyac hiss etdiyinə görə yox, ağcaqanaddan qorunmaq üçün fasiləsiz tüstülədirdi.

—Bağışla, mərifətsizlik eləyirəm, İsfəndiyar kişi, atdan düşmürəm.

Qoca bunu eşitmədi.

—Mən inanmıram!—deyib, qəfildən başını qaldırıb özü də bilmədən qışqırdı:—Mən inanmıram, ferşil mənim çörəyimi bassın!

Qurban kişi diksindi. Yəhərdə dim-dik qalxıb ətrafına baxdı.

—Yavaş, a kişi, niyə çığırırsan!
—Elə sözmü deyirsən ki, çığırmayım! A Qurban, başına dönüm, axı niyə demirsən görüm sənin əsasın nədi?
—Yavaş! Eşidən olar!
—Eşidirlər, eşitsinlər! De görüm nə görübsən?
—Mən sənə bayaq dedim…—Qurban kişi hətta yəhərdən əyilib pıçıltı ilə cavab verdi.—Bayaq dedim yalan danışıb vicdanıma ləkə sallammaram, İsfəndiyar kişi, bir şey görməmişəm.
—Bəs əsas?
—Əsas—mənim ürəyim!.. O gədə çox yerəbaxan gədədi, İsfəndiyar kişi. Suyun lal axanındandı. Axşam idarəyə gedirəm, baxıram—oturub həyətində. İdarədən qayıdıram, baxıram—genə oturub… Başıaşağı, taytıya-taytıya gedir, gəlir, nə bir adamnan kəlmə kəsir, bu boyda kənddə, nə bir adamın çörəyini kəsir. Amma sənin qapında o gün olurmu ki, oturmasın!.. Dava başlayalı mən iki göz də satın almışam, İsfəndiyar kişi, görməyə bilmərəm.
—Sonra?
—Nə sonra?
—De görüm özgə nə əsasın var?

Qurban kişi çiynini çəkdi.

—Özgə hələ bir şey yoxdu, İsfəndiyar kişi, vicdanıma ləkə salammaram.

Qoca baxıb-baxıb, birdəncə gülümsündü.

—A pir olmuş, bə bayaqdan bəri məni niyə öldürürsən?—Birdən də ciddiləşdi.—Sənə and verirəm balalarıyın canına, heç nə gizlətmə! Mən uşaq ha deyiləm, başına dönüm!

Qurban kişi yenə papirosunu sümürüb, bu dəfə tüstünü ciyərlərinə çəkdi.

—Balam olsaydı, indi mən də səni təki əsgər atası olardım, İsfəndiyar kişi!..—Boğuq gülüb, əyilib əlini qocanın çiyninə vurdu.—Qocalırsan ha!..

Qaranlıq çöl, ağarışan gölməçələr, ala-tala buludlu, ulduzlu göy, qamış damları bozaran sakit kənd—hər şey birdən-birə İsfəndiyar kişiyə qəmli-qüssəli göründü. Dünyada insan üçün övladsızlıqdan böyük dərd bilməyən qoca, bayaqdan bəri ara-sıra fikrini məşğul edən əsgəri də, feldşer barədə söhbəti də unudub, inilti ilə:
—Bağışla!—dedi.—Doğrudan kaftarlaşmışam! Bağışla məni…

6

At yenə də burnunu biyanların arasında gəzdirib otlardan qırpa-qırpa, addım-addım gedirdi. İsfəndiyar kişi bir əli ilə yəhərin şehdən islanmış soyuq qaşından tutub, altdan dik Sovet sədrinin papirosunun işıltısına baxa-baxa, yenə feldşerin haqqında danışırdı:

—Başına dönüm, onun barəsində pis fikrə düşmə. İki göz də satın almağın, ehtiyatlı olmağın yaxşıdı, çox yaxşıdı. Ancaq ferşil barəsində fikrini dəyiş. Çoban Abdullanın oğlunun qıçı neçə yerdən yaralıydı. Onu heç demirəm. Mənim babam da, atam da, rəhmətlik arvad da, hamısı qızdırmadan üzülüb ölüb. İndi deyirlər əhli-bəşərin bir düşməni var, o də Hitlerdi. Ancaq mənim aləmimdə, bu ağcaqanad ki, var, Hitlerdən də betərdi. Neçə aydı o yazıq axsaq ağcaqanadnan cəngi-cidaldadı. Mən də bilirəm, bütün kəndə də bəllidi ki, sən həməşə elin qeyrətini çəkibsən, elə ona görə də belə balaca qalıbsan…

Qurban kişi bir daha əlini qocanın çiyninə vurdu.

—Balacalığıma sataşma, İsfəndiyar kişi. O axsaq gədə barədə də qurtar!.. Hə, heç xəbərin varmi ki, dünyada nə ki böyük adam olub, hamısı boydan balaca olub? Tək birindən başqa.

Feldşer haqqında xoşagəlməz söhbəti qurtarmağa İsfəndiyar kişi özü də ehtiyac hiss edirdi, ancaq susa bilmirdi. Sovet sədri “qurtar!” deyəndə, nəhayət, söhbət dəyişdi.

—O tək biri kimdi, a Qurban?

—Pyotr Pervi! Eşidibsən? Hardan eşidəcəksən?.. O gün vayenkomata gedəndə ordenlərimi taxıb getmişdim. Vayenkom Talıbov baxdı dedi mən bilirdim sən belə böyük adamsan. Başladı bütün dünyanın böyük adamlarını saymağa. Möhkəmcə doladı məni. Ürəyimdə dedim, yaxşı, sən ol mayor Talıbov, mən də olum Qılınc Qurban. Söhbət eliyə-eliyə ustubluca əlimi atdım qoburuna, tapançasını çıxardım qoydum cibimə. Axşam gəlirəm, görürəm, yazığın rəngi sap-sarıdı. Ancaq vermədim tapançanı. Budu ha!..

Qurban kişinin ovcunda "brauninq" işıldadı.

—Amma yaman göyçək şeydi, hə?

Qoca qaranlıqda gözucu baxıb, tapançanın göyçək, ya qeyri-göyçək olduğu barədə bir şey demədi.

Qurban kişi "brauninq"i qaytarıb pencəyinin cibinə qoydu.

—Üstündə gəzdirmə, sən allah, a Qurban.
—Niyə? Gəzdirəndə nə olar ki?
—Şeytan əməlidi. Xatalı şeydi. Allah eləməmiş, hirslənərsən, gözünü qan tutar, əlindən xata çıxar.

Qurban kişi tapançanı bir daha çıxarıb, ovcunda atıb tutdu.

—Silah mənim əlimdə iqruşkadı,İsfəndiyar kişi. Sənin əlində çəkic iqruşka olan kimi… Sənin dəmirçixanada briqadirlərə hirslənən vaxtın olub?
—Başımın tükü sanı.
—Çəkici briqadirin başına endirdiyin vaxtın necə?
—Allah eləməsin, a Qurban, nə danışdığındı!
—Deməli, İsfəndiyar kişi, ağıllı adam əlində silah xatalı deyil. Adam özü silahın əlində olanda, orası xatalıdı.

Qocanın ayağı ulğun koluna ilişdi. Əyilib ulğundan bir şax qopartdı. Asta-asta üzünə, boynuna çırpıb ağcaqanadları qovdu.

—Adam özü silah əlində?.. Bu bir az qəliz oldu, a Qurban!
—Əşi, sözdü deyirəm də. Mən özüm bir vaxt mauzerin əlində olmuşam, onçun deyirəm. Mən mauzeri yox, mauzer məni çəkib qaçaqların üstə aparırdı.
—O barədə camaat yaman çox danışır.
—Nə barədə?
—Sənin qaçaqları qırmağını deyirəm.

Qurban kişi qeyri-müəyyən bir tərzdə mızıldanıb susdu. Hələ də ovcunda şappaşap atıb tutduğu "brauninq"i yenə cibinə qoydu.

—Amma vayenkom ay axtarır ha! Qoy bir həftə də axtarsın! Aparıb stolun üstə qoyanda yəqin qucaqlayıb öpəcək, qonaqlıq təklif eliyəcək. Bilirsən nə deyəcəm? Deyəcəm mənim böyüklüyümü təsdiq… A kişi, fikrin hardadı?

İsfəndiyar kişinin fikri doğrudanda ayrı yerdə idi. Uzaqda, ambulatoriyanın pəncərəsində işıq görmüşdü.

—Sən o sözü mənə nahaq dedin, a Qurban. Ferşil barədə.

Qurban kişi deyəsən bir az pərtləşdi.

—Dedim, deməmiş olum! Özün xahiş eləyirsən ki, incitməyim o gədəni, özün də yadıma salırsan!

Qoca, səbəbini özü də başa düşmədən, gözünü işıqdan çəkə bilmirdi.

—Yanı sənin onu incitmək fikrin də var?
—Qurtarmışıq o söhbəti, İsfəndiyar kişi!.. Bilmirəm nə olub sənin belə quşun qonub o axsağa! Bir də qapıya-bacaya çağırma onu!
—A Qurban, başına dönüm, axı…
—İsfəndiyar kişi, xətm elə!
—Nə deyirəm…
—Gecən xeyrə qalsın. Get yıxıl yat!
—Xeyrə qənşər get… indi hara belə, uğur ola?
—Demədim ki, elə-belə gəşt eləyirəm?

Qurban kişi atını tərpədib aralandı. Amma eynilə bayaqkıtək yenə cilovu çəkib, papirosun közərtisini əks edib işıldayan gözlərlə, diqqətlə qocaya baxdı.

—Ürəyimdə tıqqıltı qaldı, İsfəndiyar kişi. Əsgər dedin, zad dedin… səndən bircə xahişim var. Neynirsən elə, kimnən nə təhər dolanırsan dolan, amma məndən söz gizlətmə.
—A Qurban, başına dönüm, mənim nə…
—Yaxşı, yaxşı! Yeri get, yıxıl yat!.. Gözümə yaman birtəhər dəyirsən. Naxoşlarsan ha, kişi! Özünü gümrah saxla! Yola-rizə də az bax! Axşam görürəm oturubsan ağacın altında, salam verdim, salamımı da almadın. Çox fikirlənmə, a kişi, inşallah, bir gün bizim küçədə də bayram olar.
—Allah ağzından eşitsin, a Qurban, başına dönüm, allah ağzından eşitsin! Ancaq fikir çəkməmək olmur.
—Yaxşı, gecən xeyrə qalsın! Axşamda, sabahda gələrəm, oturub yaxşı-yaxşı söhbət elərik. Sabah vayenkomata getməliyəm. Deyəsən genə çağırış var. İyirmi dörddə anadan olanları uçota alacaqlar. Belə getsə, deyəsən, kolxozlar uşaq-muşağın umuduna qalacaq.

Qurban kişi atını sürüb getdi. Dəmirçi, yel vurduqca qığılcımlanan papirosun işıltısına baxa-baxa, tək bircə anlığa fikrindən ayrıldı. Qocaya elə gəldi ki, Sovet sədri də davaya oğul göndərmiş olsaydı, nə onun—İsfəndiyar kişini, nə də başqalarının haqqında düşünə bilərdi; başqasının haqqında düşünmək, özgənin dərdini çəkmək asandır.

Yavaş-yavaş kəndə doğru addımlayanda yenə də drezendən düşən əsgəri xatırladı. Doğrudanmı gözü alacalanıb, xəyallanıb?.. Yaxşı, gələn əsgərdisə, bəs kənddə niyə səs-səmir yoxdu?.. Qurbanlıda ev çoxdur. İki yüzdən artıqdır. Ancaq bir ildir ki, bu evlərin xeyri də, şəri də ortaqdır. Birisinin ayağına daş dəydimi, o dəqiqə hamı xəbər tutur. Birisinin gedəni gəldimi, dərhal toy-bayram başlayır, çağırışma, səsləşmə, muştuluqlama… İsfəndiyar kişi bir daha əyilib əlini otun şehinə çəkdi, ovcunu alnına qoydu. Qızdırmalı adam kimi, alnı əlini yandırdı.

7

Birdən qulağına səs gəldi. Gödəkçəsi çiynindən düşdü. Əyilib gödəkçəni çiynindən götürməyə səbri çatmadı. Var qüvvəsi ilə yüyürməyə başladı. Səs adi səs deyildi. Saz səsi idi! Özü də bəridən, ucqardan, onun evindən eşidilirdi!

Lap çoxdandı, kim bilir neçə ildi ki, İsfəndiyar kişi belə yüyürməmişdi. Nəfəsi qaraldı. Boğazında gicişmə, sinəsində ağrı hiss etdi. Ancaq dayanmadı. Çalan Bəhmən idi! Buna heç bir şəkk-şübhə ola bilməzdi. Atasının zövqünə, ruhuna uyğun, asta-asta, narın-narın çalırdı. “Qulağına saz səsi gəlsə, bil ki, mən qayıtmışam, baba.” Demək yuxu boş-boşuna deyilmiş! Demək, nahaq yerə əhd eləməyibmiş! Demək şirmayılı sazın tilsimi sındı!

—Oğlum gəldi!.. Ay camaat, Bəhmənim gəldi!..—Qoca qışqırmağa çalışırdı, səsi çıxmırdı.

Həyətə yetişəndə gözləri toplanmışdı. Qovağın nəhəng qaraltısı qarşısında ləngər vururdu, yanıb qurtarmaqda olan təzəklərin əlcə-əlcə qırmızı odlarının işıltısı, qızmağa qoyulmuş samovardan çıxan alov o yan-bu yana yaymalanırdı.

Qocanın sinəsindəki ağrı şiddətlənib kürəyinə vururdu. Başa düşürdü ki, bu yaxşı əlamət deyil. Amma vecinə almırdı. Çünki indi sazın səsini daha aydın eşidirdi, simlərə mizrab vuran, pərdələrin üstündə gəzən barmaqların məhz Bəhmənin barmaqları olduğunu daha artıq inamla təsdiq edirdi. Demək, “sonbeşik—yurda keşik” məhz onun xəyal elədiyi kimi gəlmişdi; gecə vaxtı, xəbərsiz-ətərsiz, qapıdan girib, gəlinlərlə, uşaqlarla görüşüb-öpüşəndən sonra, hələlik qonum-qonşuya, kəndə səs salmağı lazım bilməyib, sazı divardan endirib, köynəkdən çıxarıb, sinəsinə basıb, atasını sazla çağırmağa başlamışdı.

Qoca oğlunun sinədən gələn, asta—şirin səsini eşitdi:

Gəl, ey şeşpayi bəhrim,
Qalmadı tabanım, təhrim!..

—Gəlirəm, mənim balam, gəlirəm!—Qoca qapını açıb özünü içəri saldı.

Saz yuxarı başda, divarda, həmin yerindəcə asılı dururdu. Böyük gəlin yerə ləyən qoyub, qızlarından hansınınsa saçını yuyurdu. Rəhmanla Bəhmənin uşaqlıqlarını xatırladan, topa saçlı, qarnıaçıq ekizlər taxtın üstündə, süfrə qırağında oturmuşdular. Duman içində olsa da, İsfəndiyar kişi bunların hamısını görürdü. Amma simlərin cingiltisi də, oğlunun səsi də hələ qulaqlarında idi: Bəhmən onun ən çox sevdiyi "Səmənbəri" havası üstündə çalıb oxuyurdu:

Gəl, ey şeşpayi bəhrim…

"Gəlmişəm, ay oğul, bə sən hardasan?"—Qoca bir də saza baxdı. Bir də gəlinlərinə və nəvələrinə baxdı. Səs xırp kəsildi. Otaqda hər şey zülmətə batdı. İsfəndiyar kişi yıxıldı.

8

Bir az sonra gözlərini açanda, qarşısında birinci növbədə Hacının sifətini gördü. Feldşerin yun çöpüyü kimi boz saqqalı arıq sifətini, lap eynilə yun çöpüyü kimi bomboz qalın qaşlarını, dərin çuxurlarda azca şirin baxan xırdaca gözlərini gördü. Heç vaxt Hacının üzünə bu qədər yaxından baxmamışdı. Yəqin ki, buna görə də, ağlı üstünə gələndə əvvəlcə feldşerin haqqında fikirləşdi: "Yazıq nə yaman çirkiniymiş." Bu ani fikir ötüb keçəndə, drezendən düşən əsgər də, Qurban kişi də, Bəhmənin "Sənəmbəri"si də, divarda öz yerindəcə asılı duran saz da, hətta, böyük gəlinin yerə ləyən qoyub qızının saçını yuması da və kiçik gəlinin nimçəyə çörək ovuşdurması da, hər şey bütün təfsilatı ilə yadına düşdü. Qoca birdən acı-acı gülümsündü:

—Dəmirçi İsfəndiyar da xərifləmiş, ay Hacı!

Feldşer onun üzünə baxmadan:
—Axşamdan gözümə birtəhər dəyirdin, İsfəndiyar əmi,—dedi.—Yaxşı ki, uzaqda deyildim.
—Yoxsa işim bitmişdi, hə?
—Allah eləməsin, İsfəndiyar əmi.
—Uşaqlar hanı, gözümə dəymirlər?

Gəlinlər irəli durdular. İkisi də yaşmağı burunlarının üstünə qaldırıb yaşlı kirpiklərini döyə-döyə gülümsəyirdi, sevinirdi. "Qara pıs-pısılar" və ekizlər analarının ətəklərindən yapışıb boylanırdılar. Uşaqların gözlərində hələ də qorxu gizlənib qalmışdı.

Bayırda it hürürdü. Kəndin arasında nə isə səs-küy vardı. Bunu qulağı alanda qoca dikəldi. "Bir eşiyə çıxın, görün o nə səsdi?"—demək istədi, bayaqkı halətininin təkrar olunmağından ehtiyatlanmış kimi, qaşlarını çatıb yenə başını yastığa endirdi. Rəngi boğunuq idi. Dodaqları göyərmişdi. Yarıaçıq pəncərənin altında, bir dəstə buludtək qaynayan pərvanələrin arasında işıldayan yeddilik lampa yaxında olsaydı, qocanın bir az

çökük gicgahlarındakı göyərtilər də aydın görünərdi. İndilikdə bunu Hacıdan başqa görən yoxdu. Feldşer qəmli və bir az ürkək gözlərlə baxıb fikirləşirdi ki, bu yıxılmaqla İsfəndiyar kişi gərək azı bir həftə yerindən qalxmasın. Yaxşı olar ki, heç tərpənməsin. Amma Hacı bunu gəlinlərə demək, cəmi bir neçə dəqiqə bundan əvvəl qayınatalarının başının üzərində göz yaşı axıtmış bacıları yenidən qorxuya salmaq istəmirdi… Qoca barmağının işarəsi ilə nəvələrini yanına çağırdı. “Qara pıs-pısaların” təzəcə yuyulub, hələ qurumamış yumşaq, sərin saçlarını sığalladı. Ekizlərin birini sağ, birini sol böyründə oturtdu.

—Babanın əllərini ovuş-ovuş eləyin,—dedi.

Uşaqlar topsaçlı başlarını əyib ciddi-cəhdlə işə girişəndə qoca gülümsəyib Hacıya göz vurdu.

—İşə yarıyırlar,—dedi.

Bayırda səs-küy artır və yaxınlaşırdı. İsfəndiyar kişiyə elə gəldi ki, kimsə onun gəlinlərini çağırır, “muştuluq, muştuluq!”—deyir. Dəmir yolunda şpalların üstündə bir tikə yeri aydınlaşdıran solğun fənər işığında, sonra Məhərin budkasının pəncərəsi qabağında gözünə dəyib qaranlıqda yox olan əsgər paltarlı oğlan kim bilir neçənci dəfə xəyalında dolananda qocanın dodaqları və saqqalının ucu titrədi. Təkrar dikəldi, “Eşitmirsinizmi?.. Çağıranı eşitmirsinizmi, a qızım?”—demək istədi. Lakin, çağıran vardısa, bəs gəlinlər niyə hay vermirdilər? “Muştuluq, Muştuluq” deyən vardısa, bəs onlar niyə bu qədər laqeyd dayanmışdılar?.. Qoca eynilə bayaq saz səsi eşidəndə oduğu kimi, ürəyinin çapaladığını, gözlərinin torlandığını hiss etdi. Pəncərənin altında lampanın işığı azaldı, qaynaşan pərvanələr elə bil birləşib boz-bulanıq bir kütləyə çevrildi. Amma qoca özünü toxtatmağa, gəlinlərə, uşaqlara bir şey bildirməməyə, mümkün qədər gümrah danışmağa çalışdı.

—Deyəsən, balalarımı yaman qorxutmuşam.

Feldşer dillənmədi. Ovcunda ucu yoğun iynəli zorba bir şpris vardı. Qoca pərvanələri, gəlinlərini və nəvələrinin sifətlərini, yəni nisbətən uzağı yaxşı seçməsə də, şprisi aydın görürdü.

—Nə yekə şeydi, a başına dönüm, mal iynəsidi, nədi?

İsfəndiyar kişi hətta zarafat eləyib, “mən ki, mal deyiləm, bala” demək istədi. Amma bu vaxt səs lap yaxından eşidildi:
—Ay Pəri, ay Tubu, ay İsfəndiyar əmi, heyy!.. Muştulu-uq!..

Feldşer taxtın küncündə başını aşağı salıb, bir əli ilə çantasını eşələyə-eşələyə öz işini görürdü. Gəlinlər bir-birinə baxırdılar. Nəhayət ki, kişi dözə bilmədi.

—Niyə boy-boya verib dirək təki quruyubsunuz?! Mənim başıma hava gəlib, durduğum yerdə qulağıma səs gəlir, yoxsa doğrudan çağıran var?

Gəlinlər ipək kimi yumşaq, mülayim, mehriban qayınatanın belə qışqırdığını bir dəfə də görməmişdilər. İkisi də dərhal dönüb eşiyə yüyürdü.

İsfəndiyar kişi hirsli-hirsli feldşerə baxdı.

—Eşitmirsənmi?

Hacı bütünlükdə öz işinə qapılmışdı. Qocanın qolunu çirməyib, daştək möhkəm əzələ üstündə tarım çəkilmiş tutqun dərini ordan-burdan dartışdırıb, yoda batırılmış pambığı sürtməyə və iynəni vurmağa münasib yer axtarırdı. Qocanın sifətinin birdən-birə dəyişdiyini görüb, əlini onun qolundan çəkdi.

—Nə buyurursan, İsfəndiyar əmi?
—Deyirəm, çağıran adamın səsini eşitmirsənmi?
—Mən bir az ağır eşidirəm, İsfəndiyar əmi. O gölməçələrə düşəndən bəri qulaqlarım ağırlaşıb,—feldşer yorğun-yorğun qımışdı.—Hər yerim düzüydü, bircə qulaqlarım qalmışdı, o da düzəldi. Zəhmət olmasa, qolunu boş qoy, İsfəndiyar əmi, göz dəyməsin, maşallah, bədənin dəmir kimidi, adam heç bilmir iynəni hara batırsın. Zəhmət olmasa…
—Dayan görüm!..—Qoca gərginlikdən titrəyib eşiyə qulaq kəsildi.
—Ay Pəri, Ay Tubu, boğazım yırtıldı ki, çağırmaqdan! Əlinizi cibinizə salın görüm nə çıxardırsınız!

Bunu deyən bir qız uşağı idi. Adı Milliyyə idi. Kənddə hamı Milli deyirdi. Baldırıaçıq, arıq, uzun, yetim qız idi. Dayısı evində olurdu. Dayısı əsgərliyə gedəndən sonra İsfəndiyar kişinin xahişi ilə onu poçtalyon qoymuşdular. Şad xəbər olanda—məktubu gəlməyəndən məktub gələndə, cəbhədən əsgər qayıdanda Milli at kimi çapa-çapa, qapı-qapı düşüb bütün kəndi muştuluqlayırdı. Arvadların danışdığına görə, indi bu yetim qızın sandığında qalaq-qalaq “göy əllilikər, qırmızı otuzluqlar” vardı, qat-qat parça, kəlağayı, qənd, çay, mampası vardı.

İsfəndiyar kişi, asta-asta, sakit-sakit nə isə deyib ona mane olmaq istəməyən feldşerə əhəmiyyət vermədən, babanın əllərini ovuşdurmaqdan ayrı cür zövq alan nəvələrinin birini sağa itələdi, birini sola, yorğanı üstündən atıb, ağ tuman-köynəkdə, taxtdan düşdü. Madam ki, Milli həyətə gəlmişdi, madam ki, “əlinizi cibinizə salın” deyirdi, deməl gələn vardı! Kim idi gələn? İsfəndiyar kişi bu barədə o qədər də fikirləşmədi. Taxtdan düşüb, tələm-tələs şalvarı qıçlarına keçirib, əlini çəkməsinə atdı.

—Deyirəm, a Qurban, əsgəri aydınca görmüşəm. Belində, deyirəm, arxa çantasınacan görmüşəm, drizindən düşüb göldən şığanıb kəndə yüyürdü. Deyir, gözün alacalanıb, a kişi, əsgər gələ, kənd də belə lal-dinməz ola? Bu da sənə səs-küy, ay Qurban!

Hər gün araba yağı ilə yağlandığından dərisi sürçəklənmiş çəkmələri çəkişdirib, ayaqlarını basdıqca qocanın əlləri titrəyirdi. Hacı onun dediklərini başa düşmədən, çəkmələri dartışdırdıqca tir-tir əsən, tamamilə taqətsiz əllərə baxa-baxa susurdu.

Gəlinlərdən hansısa içəri girdi, yorğan-döşək yığınının arasından nə isə çıxarıb qapıya yönəldi. Qoca çəkmələri ilə əlləşə-əlləşə, qan-tər içində, tövşüyə-tövşüyə xəbər aldı:
—Kimdi, a qızım? Kimdi gələn?
—Səlimdi, baba, Manqa Bənövşənin qardaşı Səlim,—gəlin yaşmağın altından pıçıltı ilə cavab verib eşiyə yüyürdü.
—Səlim… Deməli Səlim…—Qoca bu adı öz-özünə təkrar edib duruxdu. Nəyə isə təəssüf etdi, hətta köksünü ötürdü. Sonra yenə çəkməsinin boğazından yapışıb dartışdırdı.
—Nə olar, Səlim olsun! Səlim də bizimkidi! Səlim də bu obanın oğludu!.. Deməli, bir nəfər də sağ-salamat qayıtdı. Şükür allaha, şükür allaha!.. Qurban deyirdi, iyirmi dörddə anadan olanları da çağırırlar. Kolxoz, deyirdi, uşaq-muşağın umuduna qalacaq… Amma görürsənmi, bir ucdan getsə də, gələn də var! Bir yandan bağlayan allah bir yandan da açır! A bala, a Hacı, niyə elə birtəhər durubsan? Sevinmirsənmi?
—Niyə sevinmirəm, İsfəndiyar əmi? Belə şeyə də sevinməmək olarmı?
—Üzündə, gözündə bir şey görmürəm!

Feldşer yorğun-yorğun çiynini çəkdi.

—Mənim şadlığım da, qəmim də ürəyimdə olur, İsfəndiyar əmi,—dedi və birdən qızarıb başını aşağı saldı.

Bu dəfə gəlinlərin ikisi də içəri girdi. İkisinin də yanaqları qızarmışdı. İkisinin də gözlərində parıltı vardı.

—Bu saat, a qızım, bu saat gedək görüşək!

Uzaqdan Millinin səsi eşidildi:
—Ay Xeyrə xala, ay Xeyrə xala! Ay Seyid əmi!..

İsfəndiyar kişi bu səsə qulaq asıb, gəlinlərinə baxdı.

—Yetimə bir şey verdinizmi, a qızım?
—Verdik, baba. Kəlağayı verdik.
—Yaxşı eləyibsiniz! Yolum rayona düşsə muştuluqdan ötrü məxsusi xeyli şey alıb gətirəcəm!.. Danışdırdınızmı yetimi, a qızım, nə təhər gəlib, nə deyir? Həməşəlikmi gəlib?
—Otpuskaya gəlib, baba.
—Nə əcəb, nə yaxşı?
—Yaralıdı, deyir, çiynindən yaralıdı. Qospitalda yatıb, çıxanda kəmisyəyə salıb altı ay otpuska veriblər.

—Altı ay… Neynək, altı ay da pis deyil, bir igidin ömrüdü! İndiki zamanda adam var ki, bir ayı da, bircə günü də ömürdən hesab eləyir. O bizik, ayın, günün qədirini bilməyən!.. Hə, di nə durubsunuz, a qızım, hazırlaşın, istəyirsiniz uşaqları da götürün, gedək, görüşək. Bu gün Manqa Bənövşənin qapısına gün doğub, sabah, birigün də bizim qapımıza gün doğar, inşallah! Bizim küçəmizdə də bayram olar, inşallah!.. Gərək ki, Səlimdən də kağız gəlmirdi, hə?
—Gəlmirdi, baba.
—Hə, bax görürsünüzmü? Deməli, kağızı gəlmiyənin özü də günlərin birində böyürdən çıxa bilərmiş! Görürsünüzmü?
—Biz nə deyirik, baba, biz bir şey demirik. Sənsən hər şeyi ürəyinə salan.
—Mən?.. Hm!.. Deməli, mən, dağ boyda kişi sizcən də olmadım? Çox danışmayın! Uşaqları geydirin! Yaxşı ütülü paltar geydirin! Ayaqqabılarını da ayaqlarına taxın. Səlim deməsin ki, Rəhmannan Bəhmən gedəndən sonra balaları korluq çəkir!

Burda qoca lap təngnəfəs olub, çəkmələri dartışdırmağa ara verdi, köynəyinin ətəyi ilə tərini silib, məzəmmətlə feldşerə baxdı.

—Əlini niyə uzatmırsan, görmürsənmi birtəhər oldum! Ayaqlarım şişibdi, nədi, girmir ki, girmir, bu zəhrimarlar! Çustdan, qaloşdan-zaddan bir şey tapıb taxardım ayağıma, ancaq xeyir işə gedirik. Kömək elə görüm, başına dönüm!..

Qocanın sevinci necə coşğundusa, feldşer etirazını boğub susurdu. Amma, nəhayət, fikrini deməyə məcbur oldu:
—Sənə qalxmaq olmaz, İsfəndiyar əmi.

Qoca bunu gözləmirdi.

—Necə yanı qalxmaq olmaz, nə sarsaq-sarsaq danışırsan!..
—Bağışla, İsfəndiyar əmi, mən bilirəm, başa düşürəm ki, ürəyin atdanıb. Ancaq pristupdan sonra olmaz.
—Nədən? Nədən?..

—Yəni ürəkkeçməsindən sonra…—Hacı səbrlə izah etdi:—Qalxıb yerimək, gəzmək olmaz, İsfəndiyar əmi. Altını çəkərsən. Naxoşluğun tərsiyə bilər, allah eləməsin.
—Deyirsən, yanı böyrü üstə döşəli qalım?
—Azı bir həftə, İsfəndiyar əmi. Mən səndən çox-çox üzr istəyirəm, dönə-dönə üzr istəyirəm ki, belə ürəyi atdanan vaxtında qabağına durub getmə deyirəm. Mən nəkarayam səni kimi hörmətli, ağsaqqal adamın qabağına durum? Getmə deyəndə, yəni həkimlikdən azdan-çoxdan başı çıxan bir adam təki məsləhət eləyirəm ki, heç olmasa bircə həftə yorğan-döşəkdən qalxma, İsfəndiyar əmi, heç olmasa bircə həftə…

Bu, qocaya gülməli göründü.

—Deməli, yetmiş ildə bir kərə yıxılmışam deyin gərək bir həftə böyrü üstə qalım?
—Böyrü üstə yox, yanı üstə yatsan daha yaxşı olar, İsfəndiyar əmi.
—Yanı onun da tafotu var?
—Böyük təfavütü var, əlbəttə, İsfəndiyar əmi. Sol böyrüyün üstə yatsan ürəyinə ağırlıq düşər.

İsfəndiyar kişi ürəkdən qəhqəhə çəkdi.

—Sən bunun dərsini harda keçibsən?
—Mənim müəllimim elə səni təki ağsaqqal, nurani bir həkim olub, İsfəndiyar əmi. Milləti nemesiydi, dava başlanandan sonra sürdülər.
—Sənə o deyib ki, adam sol böyrünün üstə yatanda ürəyinə  ağırlıq düşər?
—O mənə çox şey deyib, İsfəndiyar əmi. Altı ay onun yanında kurs keçmişəm. Ürək barədə də çox şey deyib.

Qoca hələ də gülürdü.

—Onun dediyi yəqin lemsələrə aidiymiş, bala. Böyrü üstə yatmaqdan müsəlmanın ürəyi ağrımaz. Çəkmələri çək görüm yuxarı!

Hacı duruxdu.

—Çəkmiyəcəm, İsfəndiyar əmi. Çox-çox üzr istəyirəm, dönə-dönə üzr istəyirəm, çəkmiyəcəm.

Qoca birdən dəyişib, hirsindən fısıldadı.

—Ayaqyalın gedim deyirsən?
—Nə ayaqyalın, nə ayaqqabılı. Oturacaqsan oturduğun yerdə, İsfəndiyar əmi. Daha doğrusu, uzanacaqsan. Bağışla məni, ayrı cür mümkün deyil.

Qoca şappıltı ilə əlini-əlinə vurdu.

—Mən sənin belə tərsliyini bilmirdim. Buynuzun içindəymiş ki!.. A bala, a qızım, nə yaman qurdalanırsınız küncdə-bucaqda, zəhmət çəkin mənim çəkmələrimi geydirin. Ferşilimizin insafı daşa döndü, gəlin görüm!

Gəlinlər, ikisi də yüyürüb taxta yaxınlaşdılar. İsfəndiyar kişi feldşerdə ömründə təsadüf etmədiyi bir hərəkət də gördü: Hacı çox ciddi, sərt ifadə ilə gözlərini qıyıb, cəld atılıb əlini gəlinlərin qabağına tutdu:
—Siz qarışmayın!

Qocanın gözləri bərəldi.

—Səndə həngamə varıymış ki, ay oğul! Ay səni pir olasan, nə boyda buynuzun varıymış sənin!

Qoca arada Qurban kişinin feldşer haqqında bir kəlməsini—“yerəbaxandı” dediyini xatırladı. Amma bu kəlmə ilə əlaqədar şeyləri xatırlamaq istəmədi.

—Deməli, məni zornan saxlamaq qəsdindəsən?
—Mən xahiş eləyirəm, İsfəndiyar əmi, acizanə xahiş eləyirəm.
—Zora qalsa gücün çatmaz, bala,—deyib qoca birdən qımışdı.—Mən səndən çox razıyam, Hacı, allah da razı olsun… Qayğımı çəkirsən. Ancaq sən gəl o qədər də bərkinmə. Mən möhkəm adamam. Ömrümdə tək bir kərə sinəmi soyuq tutmuşdu, deyirdilər ikitərəfli sətəlcəm olmuşam, ancaq onda da heç bircə saat da yatmadım. Getdim, çəkici götürüb düşdüm zindanın canına, özümü tərlədib ayaq üstəcə sağaldım.

Hacı, sakitcə dayanıb nə isə gözləyən gəlinləri geri qaytarıb, qocaya sarı döndü.

—Sətəlcəm başqa, ürək pristupu başqa, İsfəndiyar əmi, çox xahiş eləyirəm, acizanə yalvarıram, getmə. Mən bu saat gedib deyərəm, Bənövşə bacıya başa salaram hər şeyi, Səlim özü gəlib sənnən görüşər.
—Bəsdi, Hacı, qurtardıq!—Qoca yenə əlini çəkməyə atdı.—Mən, dılğır bir qoca, qızıl güllənin qabağından gələn igidi ayağıma gətirdəcəm? Məni kimisinin yüzü qurban olsun bir əsgərə!

Çəkməsinin birini geyinməyə müvəffəq olub sevindi, gümrahlaşdı.—Bu dünyada yetmiş il ömür sürmüşəm, bir kərə də kürəyimi yerə verməmişəm! İndi, sənin sözünnən, bir həftə yorğan-döşəyin arasında döşəli qalacam ki, nə var, nə var, ayda, ildə bir kərə ürəyim qısılıb! Dəmirçi İsfəndiyar o kişilərdən deyil, bala!.. Yaxşı oğlansan, Hacı, elinə-obasına can yandıran, çalışğan, başıaşağı, əsil mən deyən oğlansan, ancaq xətrinə dəyməsin, bir az nəziyindən qanan deyilsən. Əgər sən İsfəndiyar əmiyin xətrini istəyirsənsə, doğrudan da yarasına məlhəm qoyub sağaltmaq istəyirsənsə, gərək özün deyəsən, get, İsfəndiyar əmi! Bu günəcən bu kəndin nə xeyri mənsiz olub, nə də, iraq evdən-eşikdən, nə də şəri. İndi belə bir gündə mən damın altında yaslanıb oturum ki, nə var, nə var, bir kərə büdrəyib yıxılmışam?!. Ay uşaq, nə çox qurdalandınız, a bala, əlli olsanız! Tez eləyin, gedək seyrəkliknən bir yaxşı-yaxşı görüşək, bir-iki kəlmə söhbət eliyək. Nə bilirsiz, bəlkə allah verəcək, qulağımız yaxşı xəbər eşidəcək?! Qurtarın!..—Nəhayət, çəkmənin o biri tayını da geyinməyə müvəffəq olub dikəldi…

9

İkinci dəfə huşsuzluqdan ayılıb gözlərini açanda, qoca, qarşısında feldşer əvəzinə Qurban kişinin xırda-xırda, saysız-hesabsız qırışlarla kəsik-kəsik olmuş quru sifətini, düşüncəli, qayğılı gözlərini gördü. Yenə də sinəsində şiddətli ağrı vardı. Hərdən sızıltı kürəyinə vururdu.

—Dəmirçi İsfəndiyar da xərifləmiş, ay Qurban!..—Qoca həmişəki gümrah, bir az qalınaraq və bir az da xırıltılı səsi əvəzində elə bil tamam yad bir adamın zəif, iniltili səsini eşidib, buna xeyli təəccübləndi. Sonra birdən narahat olub gözlərini ətrafına dolandırdı, gəlinlərini, nəvələrini axtardı. Bu dəfə onlar nədənsə lap kənarda kutlaşıb dayanmışdılar. İsfəndiyar kişi fikirləşdi ki, görünür gəlinlər, Sovet sədrindən həyalandıqlarına görə kənara çəkiliblər. Əlini qaldırıb gəlinləri yaxına çağırmaq istədi, əlinin "köhnə dudman"dakı böyük çəkic kimi ağırlaşdığını hiss etdikdə, narahatlığı daha da artdı: səs heç, görsəydilər ki, əlini də qaldıra bilmir, yazıq gəlinlər ürəklərini yeyib qurtarardılar.

—A bala, a qızım, yaxın gəlin.

Gəlinlər, böyür-başlarında da uşaqlar, dərhal taxtın yanına yeridilər.

—Eşidin, birkərəlik arxayın olun…—Qoca bu sözləri hələ birinci dəfə yıxılandan sonra demək istəmişdi, necə olmuşdusa unutmuşdu. İndi mütləq deməli idi ki, gəlinləri birdəfəlik sakitləşsinlər. Nəfəsinin düzəlməyini gözləyib, yenidən başladı:—Eşidin, birkərəlik arxayın olun, lap yüz yol yıxılsam da, mənə heççə şey olası deyil. Uşaqlar qayıdana qədər əzrayıla can verməerəm! Etiqadım var, ölmüyəcəyəm! Bildinizmi?

Qurban kişinin yanında gəlinlərin ikisi də yerə baxırdı. İkisi də yaşmağı lap yuxarı qaldırmışdı. Dillənmirdilər.

—Eşitdinizmi nə dedim?
—Eşitdik, baba, niyə eşitmirik.
—Arxayın oldunuzmu?
—Olduq, baba.
—Di gedin ocağınızı qalayın, samovarınızı qaynadın, evimizə hörmətli qonaq gəlib.

Hörmətli qonaq nədənsə səsini çıxartmırdı. Taxtın küncündə oturub, qabağı qırmızı ulduzlu qara meşin şapkasını qaşlarının üstünə basıb, fikirli-fikirli papiros çəkirdi. Qatı tüstü ağzından, burnundan yavaş-yavaş çıxıb şapkasının günlüyü altında göllənirdi, başını çulğalayıb çevrə-çevrə yayılırdı. Qoca bu tüstüyə baxa-baxa xatırladı… Səlim yuxarı başda, bacısının xalça vurub müxtəlif tikmələrlə, şəkillərlə bəzədiyi divarın dibində, balaxa stolun arxasında oturub papiros çəkirdi. Çarpayılarda, pəncərələrin ağzında və çoxusu birbaş yerdə oturan arvadlar, gəlinlər, uşaqlar, hamısı ona baxırdı, İsfəndiyar kişi, dalınca da gəlinləri və nəvələri içəri girəndə hamı, o cümlədən Səlim də ayağa qalxdı. İsfəndiyar kişinin hələ yolda ikən ürəyi sancırdı.

Bəstəboy, enlikürək, enlisifət əsgərə baxanda isə gözləri torlandı. Səlimlə necə görüşdüyü, nə deyib, nə danışdığı yadında deyildi. Kimsə kətil qoyub, qolundan tutub nəzakətlə və nə isə çox kövrək səslə: "Əyləş, İsfəndiyar əmi, əyləş,"—dedi. Deyəsən Manqa Bənövşə idi. Qoca oturdu. Ancaq Səlimin üzünə baxa bilmədi. Müharibədən əvvəl Səlimdən xoşu

gəlməzdi. “Çox pələ-püsür şeydi, üstəlik də ağızdan avaradı,”—deyərdi. İndi isə… İnsan necə dəyişərmiş! Necə gözəlləşərmiş! Qapıdan girəndə qoca hətta diksindi: pələ-püsür, sallaqqulaq Səlim əvəzində elə bil özünün sonbeşik—yurda keşiyini—Bəhmənini gördü. Gözünü qaldırıb bir də baxmağa cəsarət etmədi. Arvadlar qarhaqur salıb nə isə danışmağa, Səlimi sorğu-suala tutmağa başladılar. İsfəndiyar kişi yalnız uğultu eşidirdi, heç nə başa düşmürdü. Arada təkcə bunu qulağı aldı ki, drezendən düşüb gələndə yolda Səlimin sarğısı açılıb, yarası qanayıb; Hacı kiminsə atını minib vağzaldan nə isə yaxşı dərman gətirməyə çapıb; arvadlar feldşeri gözləmədən özləri Səlimin sarğısını təzələmək istəyirdilər, Səlim qoymurdu.

Birdən uğultu içərisində kim isə qocanın adını çəkdi. İsfəndiyar kişi səs gələn tərəfə döndü: yetim qız idi, Milli. Qocanın nə isə heç xoşuna gəlməyən, burda birinci dəfə gördüyü açıqlıqla, qəribə parıltılı gözlərlə ona baxırdı.

—Nə deyirsən, a qızım?

Milli, kənd arasında qaçmaqdan, çör-çöpdən cızıq-cızıq olmuş, uzun qıçlarını yerdə oturanların çiyinləri üzərindən aşıra-aşıra, sürətlə gəlib istiqanlılıqla qocanın böyründə çöməldi.

—Bir kəlağayıynan yaxanı qurtarammazsan, İsfəndiyar əmi!

Bu da İsfəndiyar kişinin xoşuna gəlmədi.

—Özgə nə istəyirsən?
—Mənə ipək donluq almalısan!

Qoca üz-gözünü qırışdırdı.

—Yaxşı, alaram.

Milli bununla qurtarmadı.

—Niyə könülsüz deyirsən, İsfəndiyar əmi? O xəbəri ki, Səlim qardaş gətirib, o xəbərə görə bir donluq nəmənə şeydi ki!

Qocanın ürəyi çapalayıb bərk sancdı. Amma lap sakit danışdı:

—Nə xəbər, qızım?
—Eşitmədinmi? Demədimi oğlanların salamatdırlar! Donluq almağa pulun yoxdusa, onda izin verəcəksən, özüm baxacam, evinizdə könlümə nə yatsa, onu götürəcəm!

Millinin ağzından pis qoxu gəlirdi. Çaxır qoxusu! İsfəndiyar kişi eşitmişdi ki, ərlərindən "qara kağız" gələn bəzi gəlinlər "dərdlərini yüngülləşdirmək" üçün alverçi Xeyrəyə pul verib dəmir yolu vağzalından çaxır aldırırlar, xəlvətdə toplaşıb içirlər. Eşitmişdi ki, muştuluq üçün gedəndə Millini tutub ağzına çaxır tökürlər. Qoca buna inanmırdı. "Bizimkilər o yola getməzlər,"—deyirdi. Qızın nəfəsindən hiss etdiyi çaxır qoxusundan şübhəyə düşsə də, indi də inanmadı. Daha doğrusu, bu barədə fikirləşməyə taqəti olmadı. Hər iki əli ilə kətilin yanlarından yapışıb özünü toxtatmağa çalışdı.

—Mən bilirdim… Ürəyimə dammışdı ki, bu gün şad xəbər eşidəcəm, qızım… Nə deyir, nə danışır? Harda, necə görüb, Milli qızım? Evim-eşiyim, hamısı sənə qurbandı, gəl özün bax taxtçama-buxçama, hər nə istəyirsən götür apar! İpək donluq da alaram, nə istəsən alaram! Qapıda inəyimi satıb, onun puluna səni zər-xaraya bürüyərəm, Milli qızım! Mən birtəhərəm, sən de, xahiş elə Səlim qardaşından, danışsın, harda görüb, necə görüb?

—Eşitmirsən? Qulaq as də!—Milli qəribə kobudluqla qocanın böyrünə dürtmə vurdu. Qoca başını qaldırdı. Qulaqlarında uğultu vardı, qanı çay kimi dalğa-dalğa qıjıldayırdı.

İsfəndiyar kişi əlini üzünə aparıb gözlərini yumdu, iradəsini, diqqətini topmalağa çalışdı.

Səlim doğrudan da danışırdı. İsfəndiyar kişiyə nağıl kimi, əfsanə kimi görünən, qəribə sözlər deyirdi:

—İkisi də nalbəndlik eləyir. Hələ bir dəfə marşal Budyonnu atını onlara nalladıb.
—Kimə?.. Kimə nalladıb atını Budyonnu, ay oğul?
—Sənin oğlanlarına, İsfəndiyar əmi. Rəhmannan Bəhmənə!

Sevinclə, həyacanla birgə, qoca bir narazılıq da duydu.

—O cür pəhləvan oğlanlar… o cür ağır davada niyə nalbəndliknən məşğul olsunlar, başına dönüm? Oğullar mənim oğullarımdısa, elə şeyə razı olmazlar… Sən mənə de görüm, özün öz gözünnənmi görübsən, yoxsa?..

—Mənə deyiblər.

Qoca bu dəfə dumanlı narahatlıq hiss etdi. "Deyiblər… görməyib…"

—Kim deyib, başına dönüm?
—Bir rus deyib, İsfəndiyar əmi.
—Harda? Necə? Nə vaxt? Nə urus?.. Əməlli-başlı danış görüm, ağıl kəsən sözdümü?
—İki ayın söhbətidi, İsfəndiyar əmi.

Kağız kəsiləli beş ay idi.

—Bir dəfə razvedkaya gedirdim, İsfəndiyar əmi, yəni o tərəfə, düşmən arxasına. Bir rusa rast oldum. Dedi bizim çastda iki qardaş var, sizin qaralardandılar, müharibədən qabaq kənddə dəmirçi olublar, indi çastda nalbəndlik eləyirlər. Dedim adları nədi? Dedi adlarını bilmirəm, amma nişanlarını deyə billəm, ikisi də pəhlavan kimi oğlanlardı. Kiçik qardaş, dedi, yaxşı saz çalır, qiyamət də səsi var.

Milli səndələyib İsfəndiyar kişinin dizinə diksəkləndi. Qoca böyründə onun pıçıltısını eşitdi:
—Bəhmən qardaşın ki, sazı divardan asılı qalıb. Urusetdə sazı hardan alıb? Elə söz deynən ki…—Burda Milli hıçqırdı.—Elə söz deynən ki, muştuluqluyanda inansınlar də!

Otaqda hamı tərpənişdi. Arvadlar orda-burda baş-başa verib pıçıldaşmağa başladılar.

İsfəndiyar kişi qarşısında ağ tüstü layından savayı heç nə seçmirdi. Lakin birdən hər şey aydınlaşdı. Qoca, yəqin ki, şadlıq münasibətilə Qurban kişinin kabinetindən gətirilib yandırılmış otuzluq lampanın gur işığında hər tərəfdən ona dikilmiş gözləri və nəhayət, Səlimi gördü. Kaş heç görməyəydi. Bir az əvvəl qapıdan girəndə qucaqlayıb bağrına basdığı göyçək əsgər yoxa çıxmışdı. Əvəzində müharibədən əvvəlki—“pələ-püsür, sallaqqulaq” Səlim oturmuşdu. Hamanca Səlim! Ən dəhşətlisi isə bu idi ki, İsfəndiyar kişi onun yekə, sallaq qulaqlarının necə pis qızardığını aydınca görürdü.

Qoca, iti dirsəyi ilə dizini ağrıdan yetim qızı kənara itələdi, əyilib kətildə ikiqat oldu. Bu vəziyyətdə dönüb, arvadların arasında gəlinlərini axtardı. Gəlinlər, ikisi də ağlayırdı. Kəlağayılarını gözlərinin üstə çəkib, səssiz-səmirsiz yaş axıdırdılar. “Qara pıs-pısalar”la ekizlər təəccüblə gah bir-birinə, gah da analarına baxırdılar, görünür, başa düşə bilmirdilər ki, atalarından şad xəbər gəlmişdisə, bəs anaları nə üçün ağlayırlar.

Qoca ağır-ağır qalxıb qapıya doğru addımladı. Kandarda ayaq saxladı. Geri dönüb bir də Səlimə baxdı. “Pələ-püsür, sallaqqulaq” Səlim başını aşağı salıb, hərəkətsiz oturmuşdu. El arasında telli-toqqalı deyilən gözəl gəlin—Manqa Bənövşə əlini Səlimin kürəyinə qoyub, yaşla dolu gözlərini qocaya dikmişdi: “Qardaşıma niyə elə baxırsan, ay İsfəndiyar əmi? Qardaşımın nə günahı var?..” Qoca bu fikri təsdiq eləyib köksünü ötürdü, gəlinlərini çağırıb evdən çıxdı. Kim isə onun qoluna girdi. Sonrası İsfəndiyar kişinin yadına gəlmirdi. Çünki elə qapıdan çıxanda yıxılmışdı.

## 10

—A Qurban, niyə dillənmirsən?
—Fikirləşirəm, İsfəndiyar kişi.
—Yüz fikir bir borcu ödəməz. Yaxın otur, bir az söhbət eliyək.
—Sabah vayenkomatdan qayıdandan sonra gələrəm, yaxşı-yaxşı söhbət elərik, inşallah. İndi gedəsiyəm.
—Gəlinlər samavar qızdırırlar.

—Süfrən açıq olsun, İsfəndiyar kişi. Gedəsiyəm.
—Hara uğur ola, gecə vaxtı? Genə gəşt eliyəcəksən?
—İstəyirəm gedim adam yollayım, sənə həkim gətirsin.
—Mənim doxdurum yanımdadı.—İsfəndiyar kişi gözünü içəriyə dolandırdı, açıq qapıdan o yana, gəlinlərin yəqin ki, evə qonaq gəldiyinə görə yenidən qaladıqları ocağın işıqlandırdığı həyətə, qovağın altına, su quyusunun üstünə, Hacının həmişə oturduğu yerə baxdı.—Ferşil hanı, görmürəm? Vağzaldan qayıtmayıb?

Qurban kişi böyrünü taxtdan çəkdi, papirosunu yerə atdı, çəkməsinin burnu ilə basıb, əzib torpağa qarışdırdı.

—Sənin onu görməməyin yaxşıdı, İsfəndiyar kişi.

Qoca diksindi. Sovet sədri ilə axşamkı söhbəti yadına düşdü. Qurban kişinin yenə də birtəhər danışmasından narahat oldu. Güc-bəla ilə əlini qaldırıb, sinəsini yandıran qalın yorğanı kənara çəkdi. Ürəyi sancdı. Qoca əhəmiyyət vermədi. Əli sinəsinə toxunanda, öz barmaqları əvəzinə dərisində elə bil kənar, cansız bir şeyin buz soyuqluğunu hiss etdi. Amma buna da fikir vermədi. Yastığa dirsəklənib, Sovet sədrinin şapkasının günlüyü altında kölgələnmiş gözlərini görməyə çalışdı.

—Genə ikibaşlı danışma, başına dönüm, niyə axı…niyə görməməyim yaxşıdı, a Qurban?
—O barədə sənnən danışmışıq.
—Bə mən sənə demədimmi pis fikrə düşmə?
—Pis fikrə düşməyə bilmirəm, İsfəndiyar kişi. Mən özüm istəsəm də mümkün deyil.
—Allah mənə divan eləsin, əgər bir şey qanıramsa! Necə yanı özün istəməyə-istəməyə pis fikrə düşəsən, a başına dolanım?!. Yoxsa bir şey olub?
—Bundan artıq daha nə olacaq? Sən boyda kişini yıxıb böyrünün üstə! Qoşa əsgər atasını, bir çətən külfət yiyəsini!
—Məni?.. Məni o yıxıb?!
—Sənin başına bir iş gəlsə, o axsaq gədənin yeri vayenni tribunaldı, İsfəndiyar kişi!
—Tribunal?!. Sən nə danışırsan, a Qurban, başına dönüm, nə tribunal?!. Məni böyrümün üstə yıxan bəyəm Hacıdı?!
—Hacı yox, axsaq Hacı!
—Yaxşı, olsun axsaq Hacı…—İsfəndiyar kişi höcətləşməmək xatirinə tələsik razılaşdı.—Bir məni başa sal görüm axı, o bədbəxtin günahı nədi?

Qurban kişi bir daha papiros yandırdı, yenə yanını taxtın küncünə söykəyib, qəribə, əzabla dolu gözlərlə qocaya baxdı.

—Dirsəklənmə, rahat uzan, İsfəndiyar kişi, rahatca uzan, toxta… Mən istəmirdim sənin bu halında söz salım bu barədə.

Qurban kişi ilə çöldə söhbət vaxtı olduğu kimi, qoca indi də səbirsizlikdən boğulurdu.

—Nə sözdü? De görüm nə sözdü? Eyhamnan danışmaq nə xasiyyətdi səndə, a Qurban, başına dönüm?! Əvvəl səndə belə xasiyyət yoxuydu… Deyirsən bu dava zəhrimar bir para adamı xarab eləyib, amma özün də xarab olursan. Başına dönüm, sözünü açıqca deyəmmirsənmi?!
—Sən bir əvvəl yaxşı-yaxşı uzan görüm.
—Yaxşı, uzandım!.. Belə getsə, qorxuram elə doğrudan da böyrü üstə qalım.

Qurban kişi əyilib yorğanı onun sinəsinə çəkdi. Papirosunu sümürüb, tüstünü kənara üfürüb fikrə getdi.

Ağrı qocanın yenə kürəyinə vururdu, amma hətta buna da fikir verməyib, qan sağılmış gözlərini Qılıncdan ayırmırdı.

—Bilirsənmi, İsfəndiyar kişi…—Sovet sədri nə isə çox mühüm bir sirr açırmış kimi, qapıya sarı ötəri nəzər saldı.—Sən yaxşı kişisən, necə deyərlər, cənnətlik adamsan, hamını öz ürəyinnən ölçürsən. Ancaq, axı, hamı səni kimi deyil, hər adamın içində bir şeytan gizlənib. Ələlxüsus bu axır zamanlar içində şeytan olan adamın sayı yaman çoxalır, İsfəndiyar kişi… Gecələr mən, özün bilirsən ki, gəşt eləyirəm. Gündüzlər də rahat olammıram. Kimin üzünə baxıram, şeytan görürəm. Səndən nə gizlədim, canımı qayğı alıb, fikirdən ürəyimi yeyib qurtarmışam. Belə getsə, heç bilmirəm axırımız nə olacaq, İsfəndiyar kişi. Bir ildi sərasər dava gedir, hələ axırı görünmür. Dava bir il də uzansa, qorxuram elə adamların içində şeytan peyda olsun ki!.. Açığı, indisindən yox, kəndin sabahkı günü məni yaman qorxudur, İsfəndiyar kişi. Mən gərək çox ehtiyatlı olam, birə beş tədbirli olam!

Qoca səbir edə bilməyib Qılıncın sözünü kəsdi:
—Deyirsən, yanı ferşilin də içində şeytan var?
—Var, İsfəndiyar kişi… Çox götür-qoydan sonra bu qərara gəlmişəm ki, onun içindəki şeytanın lap yekəsindəndi!

Qoca darıxıb dərindən nəfəs aldı, başını buladı.

—Mən bilmirəm o bədbəxt oğlu bədbəxt sənin gözünə niyə ala-bula görükür, a Qurban, başına dönüm!
—Dedim ki, içində şeytan var.
—Hanı o şeytan, mən niyə görmürəm?
—Dedim ki, sən cənnətlik kişisən, hamını öz ürəyinnən ölçürsən.

Qoca, yorğanı sinəsindən kənara sürçütdü.

—Bə sən nəynən ölçürsən, a Qurban, başına dönüm?
—Mən ağılnan ölçürəm.

—O ağıldan bizdə yoxdumu?
—Mən, İsfəndiyar kişi, inqilab eləmişəm, qan tökmüşəm, hökumət qurmuşam bu üç para kənddə. Borcumdu ki, gecə də, gündüz də camaatımın barəsində fikirləşim. Borcumdu! İndicə sənə demədimmi ki, canımı qayğı alıb! Demədimmi ki, mən gərək birə beş qat artıq ayıq olam! Bildirrəri mən alverçi Xeyrəni cərimə eləmək istəyirdim, ağsaqqal-qarasaqqal yığılışıb gəldiniz üstümə, dediniz qoca arvaddı, birdən üç oğul yola salıb fronta, incitmə, qoy başını dolandırsın Tat Seyidiynən. O taydandı. Sındım mən. Arvad özü də fənd tərpəndi, gətirib üç min manat tank pulu verdi, mən də daha öhdəsinə getmədim. İndi bilirsənmi nə iş tutub o qoca, büzüşük arvad? Gecəynən arabanı sürdürüb nemes kəndinə, bir yekə çaxır boçkasını yıxıb arabaya, gətirib soxub ot tayasının arasına, hardansa bir qırıq qramafon da tapıb. Gecələr gəlinləri çağırır evinə, qapı-pəncərəni basıb qramafonu çaldırır, kəsmə şikəstəni oxutdurub əsgər arvadlarının ürəklərini köyrəldəndən sonra, yarıxoş, yarızor, çaxır içirdir! Çaxırı sırıyıb qəpik-quruş qazanmağı zəhəri olsun, qoy qazansın. Mən ayrı şeyin dərdini çəkirəm. İnsan övladının cilovunu buraxmaq olmaz, İsfəndiyar kişi. Qorxum ondandı ki, Xeyrə arvad təki başqalarının da cilovunu boş qoyaram, yavaş-yavaş baxarsan ki, kəndin bir şaqqası korlanıb, əldən gedib…
—Qanıram, qanıram,—qoca fikirli-fikirli mızıldadı.
—Sənə bir sual verəcəm, bir adam barədə.

Qoca əlini qaldırdı.

—Sən mənə ferşelden de… O bəsbəxti niyə qaralayıbsan, başına dönüm, məni başa sal.
—Deyəcəm, onun barəsində də deyəcəm. Əvvəl sən mənə de görüm, o yetim qız var ha, muştuluq yığan, Milliyyədi, Millidi, nədi, ona nə təhər baxırsan sən?

İsfəndiyar kişi həm ağrının şiddətindən, həm də Səlimlə görüşünün ağır təəssüratından inildəyən kimi olub, sifətini turşutdu:
—O qız bu axşam mənim ürəyimə yatmadı.
—Niyə?—Qurban kişi, öz mülahizəsinin doğrulduğuna heç bir şübhə etməyən adam sakitliyi ilə papirosunu sümürdü.—Niyə yatmadı ürəyinə?
—Ağzından çaxır iyi gəlirdi günüqaranın. Görünür o da Xeyrənin toruna düşüb.
—Təkcə ona görəmi xoşuna gəlmədi?
—Ayrı nə var ki?.. Bir də deyəsən bir az həyasızlaşıb, oturuşuna-duruşuna fikir vermir. Bənövşəgildə yanımda çöməlib dirsəyini dizimə dayamışdı.
—Sonra?
—Sonra daha bir şey bilmirəm.
—Bax, görürsən ki!.. Sən bir şey bilmirsən. Ancaq Qılınc Qurban çox şey bilir. Sənin, İsfəndiyar kişi, dünyasında ağlına gəlməz ki, o yetim qızın içində iki özü yekəlikdə şeytan gizlənib. Bəli, bəli, İsfəndiyar kişi, bəlkə də beş özü yekəlikdə!.. Sənin xəbərin varmı ki, o qız milyonerdi?
—Nə, nə?
—Bir milyon pulu var!
—A Qurban!..

—İnanmırsan?
—Sən deyəndən sonra mənim ixtiyarım yoxdu inanmamağa. Ancaq…
—Təəccüb eləyirsən?
—Mən bilirəm ki, camaat ona çox şey verir.
—Camaat vermir.
—Başa düşmədim, a Qurban.
—Milli özü alır.
—Necə yanı özü alır?!
—Hə, indi onu mən deyim, sən də eşit… Qulağıma bir balaca siqnal dəymişdi. Manqa Bənövşədən xahiş elədim ki, Millini çağır, bir-iki saat başını qarışdır. Bənövşə çağırdı, mən də getdim, qapını açdım, o qızın sandığına açar saldım. Səncə nə görsəm yaxşıdı?
—Pul,  hə?
—Xeyr.
—Bə nə?
—Bir yekə yığın məktub!

İsfəndiyar kişi bunu dərhal başa düşdü.

—Əsgər məktubu?
—Bəli, İsfəndiyar kişi, əsgər məktubu! Demə açıb oxuyurmuş, yığırmış…
—Dayan, dayan, a Qurban!.. Gəlinlərdən birini səslə, mənim başımın altına bir yastıq da qoysun. Özün də bir yaxşı-yaxşı danış görüm… Deməli, qəsdən yığırmış? Kağızın arasını kəsib, sonra birdən üzərə çıxarıb muştuluq yığırmış, hə?
—Çıxartsaydı, daha kağızlar sandıqda niyə qalırdı?
—Bə nə təhər eləyirmiş, a Qurban?
—Hələ danışdırmamışam onu. Güman eləyirəm, görükür, kağızın arasını qəsdən kəsirmiş ki, qoy əsgər ailəsi lap əlini üzsün. Üç aydan, beş aydan sonra, təzə kağız gələndə düşürmüş kəndin canına ki, "əlinizi cibinizə salın!"

Qoca birdən dikəlib qurudu.

—Vay sənin əllərin qurusun, baxtın bağlansın, a yetim!

Qurban kişi köksünü ötürdü.

—Gümanım doğru çıxsa, əlbəttə, baxtı bağlanmağına bağlanacaq. Mən hələ gözləyirəm. Məncə camaatdan işə-başa salan var onu. Marığa yatıb gözləyirəm. Kağızları qoydum qaldı sandıqda, dayısı arvadına tapşırdım ki, qıza heç nə deməsin, şübhələndirməsin. İstəyirəm qızın dalınca göz qoyum, öyrənim görüm kimdi onnan əlbir olan.—Qurban kişi gəlinləri içəri çağırmaq istəmədi, özü yastıq gətirib qocanın başının altına qoydu.—İndi rahatsanmı?

—A Qurban, başına dönüm, kağızları irdələdinmi, baxdınmı heç?

—Üç-dördünə baxmışam, hələ yaxşı yoxlayammamışam.

Qocanın dodaqları titrədi.

—Bizim uşaqlardan… Bəlkə bizimkilərdən də orda bir şey…

Burda İsfəndiyar kişi yenə də Səlimin "Şad xəbəri"ni xatırlayıb, yenə də inildəyən kimi oldu. "Bizimkilərdən orda bir şey" deyib susdu; Millinin sandığında onu sevindirəsi bir şey olmadığını başa düşmək üçün Qurban kişinin üzünə baxmaq kifayət idi.

Həyətdən nə isə səs-küy eşidilirdi. Qurban kişi arada qapıya baxıb fikirli-fikirli tüstülətdi.

—Belə-belə işlər, İsfəndiyar kişi… İndi de görüm razısanmı mən deyənnən? Şeytan əmələ gəlib?! Gəlib, ay köhnə dudman! Mən istəyirəm sən hamını öz ürəyinnən ölçmüyəsən, adamlara ehtiyatnan baxasan. İnsan çiy süd əmib, hər yetənə etibar eləmək olmaz, kişi!.. Başın yastıqdadı, xətrinə dəymək istəmirəm. Sağalarsan, danışarıq! Axsağın yeri vayenni tribunaldı!

Qurban kişi qapıya yönəldi. Orda, astanada ucaboy, arıq bir adam dayanmışdı. Deyəsən Qılınc Qurbanın içəridə olduğunu görüb ayaq saxlamışdı. İsfəndiyar kişi bu adamın—gəlinlərinin qardaşı dəmiryolçu Məhərin ancaq qaraltısını görürdü, baxışındakı narahatlığı seçmirdi, içəriyə necə həyəcanla baxdığını görmürdü. Buna görə də qapı ağzındakı qaraltıya fikir vermədən, dikəlib, tir-tir əsən əlini Sovet sədrinin arxasınca uzatdı.

—A Qurban!.. Məni niyə öldürürsən?!

Qurban kişi geri dönməyə məcbur oldu.

—Yaxın gəl!.. Bilirsənmi mənim naxoşluğumun adı nədi? İntizardı mənim naxoşluğumun adı! Üstəlik də sən məni intizarda qoyma, başına dönüm! Axı, nədi o bədbəxt ferşilin günahı ki, vayenni tribunal-zad dedin?!

Qurban kişi yenidən taxta yaxınlaşdı. Üzündə qırışlar çoxalmışdı. Gözləri indi həmişəkindən də qayğılı göründü. Gəlib dayandı, arxaya baxmadan:

—Qapını ört!—dedi.

Məhər dərhal dala çəkilib qapını basdı.

Qurban kişi çənəsini ovuşdurdu.

—Deyəsən sənnən bir az uzaqdan başlamalı olacam, İsfəndiyar kişi… Mənim adamlığımı, insafımı, vicdanımı, kəsən əlimi, yıxılanı tutub saxlayan əlimi, min kərə, milyon kərə yoxlayıbsan. Bunnan razısanmı?

—Razıyam, əlbəttə razıyam, başına dönüm, de görüm nə deyirsən.
—Mənim ikidən-birdən nahaq yerə qından çıxdığımı görübsənmi?
—Görməmişəm, başına dönüm…
—İndi mən sənə deyirəm: o axsaq gədəni kəsməliyəm!

Yorğanın altından İsfəndiyar kişinin bütün bədəni titrədi.

—Axı, günahı… Nədi o bədbəxtin günahı?!

Qurban kişi yenə əlini çənəsinə apardı.

—Sənnən bir az da uzaqdan başlamalı oldum, İsfəndiyar kişi… Mən bu söhbəti o qədər də ağartmaq istəmirdim. Ancaq daha əlacım yoxdu. Mənə de görüm, beş il bundan əvvəl o axsaq gədə dəmirçixanaya gedib səndən xahiş eləyibmi ki, dəmiryolçu Məhərin böyük bacısına elçi get, onu mənə al? Deyibmi?

—Onu sən hardan eşidibsən?
—Sən, İsfəndiyar kişi, gərək çoxdan biləydin ki, Qılınc Qurbandan gizlin şey yoxdu… Hə, indi de görüm, o əhvalatdan bir il sonra, Rəhmanın toyunda, o axsaq keflənib sənə deyibmi ki, böyük bacını öz oğluna aldın, kiçik bacını də mənə al? Deyibmi?

İsfəndiyar kişi bilmirdi nə cavab versin.

—A Qurban, başına dönüm… Olan olub, keçən keçib, dörd-beş ilin söhbətini təzədən niyə qurdalayırsan ki?
—Qurdalanmalıdı,—deyib Qurban kişi sakit inadla etiraz etdi.—Genə deyirəm, bəri başdan ehtiyatlı olmasaq, sonrakı peşmançılıq fayda verməz, İsfəndiyar kişi!.. İndi mənim bircə sualıma da cavab ver, bunnan da söhbətimizi xətm eliyək, sən dincəl, mən də gedim, həkimə adam yollayım. De görüm o, axsaq indiyə qədər niyə evlənməyib? Nədi dərdi?

İsfəndiyar kişinin daha danışası halı yoxdu. Ağrının şiddətindən yenə də nəfəsi daralırdı, gözləri torlanırdı. Bütün iradəsini, var gücünü toplayıb, inilti, pıçıltı ilə fikrini Qurban kişiyə çatdırmağa çalışdı:
—A Qurban… A Qurban, başına dönüm… mən sənə demişəm, Hacı namuslu adamdı. Yazıqdı… Bədbəxtdi… Mən bilirəm, lap çoxdan bilirəm onun dərdini. Şeytan yox, onun içində… o suyumsuz, o axsaq adamın içində gözəl bir insan var, a Qurban! Mən görmüşəm o adamı, sən də gör, başına dolanım!.. Lap açığınımı istəyirsən? Açığını da deyə billəm… Pəridən əli çıxdı, sonra Pərinin iyini Tubudan almaq istədi. O da qismət olmadı… Onun öz dərdi özünə bəsdi. Camaata qul təki qulluq eləyir. Bir mən bilirəm o

qamışlıqda nələr çəkir. Hər axşam oradan çıxanda, ağcaqanad dişləməkdən əlləri şişir kötüyə dönür. Deyirəm, ay Hacı, heç olmasa bircə gün ara ver, əlləriyin şişi çəkilsin. Deyir, bu dava zəhrimar başlayalı onsuz da azar-bezar çoxalıb, İsfəndiyar əmi, bir yandan da qaraqızdırma camaatı həkdən salır, bu qamışlıqlarda, deyir, ağcaqanadın kökünü kəsməsəm rahat olammaram… Ürəyin necə gəlir o cür qızıl təki adama pis nəzərnən baxırsan, a Qurban, başına dönüm! Üns bağlamışıq, hər axşam o ağacın altında oturub ferşilnən kəlmə kəsməsəm, o gecə elə bilirəm üstümə dağ uçub. Bizim aramıza ixtilaf salma, başına dönüm, a Qurban! Bir də, axı sən nədən ehtiyatlanırsan? Tutaq ki, lap ferşil əyri göznən baxsın. Mənim gəlinlərim namuslarını çöləmi atıblar? Yad adamnan danışanda gözlərini yerdən qaldırmırlar. Həməşə də pıçıltıynan danışırlar, səslərini çıxarmağa da utanırlar! O cür ismətli gəlinlərin namusu səni niyə narahat eləsin, a başına dönüm?!

Qoca hələ çox şey demək istəyirdi.

Gücdən düşdü. Daha çənəsi söz tutmadı. Haçandan haçana toxtayıb köksünü ötürdü.

—Oğul bərabəri istəyirəm mən o gəlinləri… açığı, oğul bərabəri!—dedi.

Qurban kişi qocanın boğulub qaralmış sifətinə, tərdən işıldayan alnına baxa-baxa, qaşlarını çatıb susurdu. Papirosun kötüyünü yenə yerə atıb, çəkməsinin burnu ilə əzib torpağa qarışdırdı. Burdaca təzə papiros yandırdı, daha bir söz deməyib qapıya yönəldi.

Qoca xeyli sakitləşdi, gözlərini yumub dincəlmək, mümkün olsa mürgüləmək istədi. Amma heç bir dəqiqə də keçmədi ki, qulağına səs gəldi:
—İsfəndiyar əmi, bu nə əhvalatdı!

Məhər idi. Eynilə bacılarınınkı kimi yumşaq, bir az titrək səslə qəribə sözlər deyirdi:
—Qurban kişi ferşili dama salıb. Deyirlər Hacı sənə qəsdən pis iynə vurub! Bu nə əhvalatdı, İsfəndiyar əmi?! Eşitdim, dünya başıma dolandı! Qəsdi nədi o köpəyoğlunun?!

Qoca susurdu. Gözlərini açmadan, mümkün qədər özünü toxtaq saxlamağa çalışa-çalışa, fikirləşirdi ki, deməli danışdıqlarının hamısı havaya gedib, Qurban kişi öz bildiyini tutub…

Qurban kişinin rayon mərkəzindən çağırtdırdığı həkim ertəsi günü axşamüstü gəlib çıxdı. Amma xəstəni yatağında tapmadı.

İsfəndiyar kişi, gödəkçəsi çiynində, təsbeh əlində, heç nə olmamış kimi, öz adi, yorğun, ağır addımları ilə dəmirçixananın yanından ötüb ortalığa doğru gedirdi.

İdarəyə çatdı.

Divar dibində cərgə ilə sallağı oturub eşmə papiros, qəlyan çəkən tay-tuşlarına salam verdi. Bu gün bu qocaların hamısı dəstə-dəstə axışıb onun yanına gəlmişdi. İsfəndiyar kişinin Səlimlə görüşüb çıxanda qapı ağzında yıxıldığını, evinə xərəklə aparıldığını hamısı eşitmişdi. Səlimin gətirdiyi "şad xəbərin" heç də yalan olmadığını, belə xəbərlərin çox zaman doğru çıxdığını sübut etməyə çalışmışdılar. Bir-birinin sözünü kəsə-kəsə İsfəndiyar kişiyə təsəlli vermişdilər. İndi isə susurdular. Papiroslarını, qəlyanlarını tüstülədə-tüstülədə, altdan-altdan qocaya baxırdılar.

İsfəndiyar kişi hiss etdi ki, indicə onun gəlişindən əvvəl burda nə isə söhbət olub. Yəqin feldşerlə onun gəlinləri haqqında, əsgər ailələrinin namusunu, qeyrətini çəkən Qılınc Qurbanın Hacını dama salması və kim bilir, bəlkə onun—İsfəndiyar kişinin Hacı ilə dostluq işlədib namussuzluq eləməsi haqqında danışıblar. Belə deyilsə, bəs dünən, bircə günün ərzində iki dəfə yıxılandan sonra, nəhayət, ayağa qalxmasına niyə sevinmirdilər?

"Yaxşı deyiblər ki, az şeydən çox törəyər. Dəmirçi İsfəndiyar—namussuz!.. Gör bir sən, allah, başıma nə iş gəldi!.."—qoca yanıb yaxılırdı.

İçəridən qadın səsi eşidilirdi. Qardaşı gəldiyinə görə başı qarışdığına görə Manqa Bənövşənin əvəzində bir başqası qəzetdən "vayenni svodka" oxuyurdu.

İsfəndiyar kişi içəri keçmədi. İdarənin qabağından ötüb bir az o yanda, dikdirdə qaralan "dustaq damına" doğru addımladı.

"Dustaq damı" deyilən bu yarıuçuq daxmaya lap çoxdandı ki, adam salınmamışdı. Qurban kişi özü də, camaat da, o cümlədən İsfəndiyar kişi də bununla fəxr edirdi. Hər dəfə daxmaya gözü sataşanda qoca ürəyində Qılınca dua oxuyurdu. İndi isə... "Gör bir məni nə işə saldı, sağ olmuş! Oğlumsanmı, qardaşımsanmı, nəyimsən ki, namusumu qoruyursan sən mənim, a sağ olmuş!.. Gör bir necə biabır oldum!"—İsfəndiyar kişi qovrulurdu.

Daxmanın qabağına çatıb dayandı.

Qapıda qıfıl yoxdu. Qurban kişi, cəftəni basıb, qıfıl əvəzinə nazikcə bir çöp keçirmişdi. Qoca buna təəccüb etmədi. Dünən gecə Məhər feldşerin dama salındığını xəbər verəndən sonra yanına kim gəlirdisə, hamıdan xahiş edirdi ki, gedib qapını açsınlar, Hacını çıxarıb gətirsinlər. Lakin elə bil hamı sözləşmişdi: hamı heyrətlə çiynini çəkib, gözünü bərəldirdi. "Qılınc Qurbanın bağladığı qapını necə açaq?"— deyirdilər. "Necə çıxardaq biz onun çöpünü?! Kimin əli gələr?!"—deyirdilər.

Qoca çöpü çıxarıb atdı. Təpiyi ilə vurub qapını açdı.

İçəri zülmət kimi qaranlıqdı. Kiflənmiş saman iyi gəlirdi.

Amma feldşerdən hənirti də gəlmirdi.

Qoca bir addım irəli yeridi.

—Ay oğul, yatırsan, nədi?

Hacı, əlbəttə, yatmırdı.

Ağlayırdı.

Qapının arasında İsfəndiyar kişinin tanış qamətini görəndə Axsağı birdəncə yaş boğmuşdu. Öz acizliyini büruzə verməmək üçün canını dişinə tutub susurdu.

Amma mümkün olmadı. Qoca yaxınlaşıb çiyninə toxunanda Hacı hönkürdü.

—Neçə vaxtdı gözümdən alıb, göz verib işıq vermir!.. Sən ki məni tanıyırsan, İsfəndiyar əmi! Sən ki mənim ürəyimə öz ürəyin kimi bələdsən, İsfəndiyar əmi! Niyə ona demirsən, niyə başa salmırsan?! Bundan sonra, bu damğadan sonra mən başımı qaldırıb necə baxım camaatın üzünə?! Hörməti, şöhrəti dağ boyda, Qılınc Qurban deyəndə hamının dili ortasından iki yarılır, nə deyir, hamısına inanırlar! İndi mən bu biabırçılığı camaata necə başa salacam, İsfəndiyar əmi?!

Qoca feldşerin qolundan yapışıb qaldırdı.

—Bəsdi! Danışıq lazım deyil!
—Yox, yox… danışmaya bilmərəm, İsfəndiyar əmi! On beş ildə çəkdiyim zəhmətin hamısı hədər getdi, necə danışmayım?! Suya girməkdən qıçlarımı yel tutub, gecələr səhərəcən sızıltıdan yatammıram. Qulaqlarım da ağır eşidir. Bunun əvəzində, hörmət, məhəbbət əvəzində, bircə günün içində camaatın nifrətini qazandım! Hədər getdi hamısı, zəhmətim puç oldu!

Qoca çəkib onu eşiyə çıxartdı.

İdarənin qabağı adamla dolu idi. Arvadlar, qocalar, uşaqlar boy-boya verib, dikdirdə dayanmış bu iki nəfərə baxırdılar.

Feldşer yaylığını çıxarıb tələsə-tələsə, əlləri titrəyə-titrəyə üz-gözünü sildi. Amma qəhərini qaytara bilmədi.

—Gör bir necə baxırlar! Elə bil qan düşmənlərinə baxırlar!—deyib hönkürdü.

Qoca onun qoluna girdi. Məzəmmətlə başını buladı.

—Doxdur naxoşun qolundan tutmaq əvəzinə, naxoş doxdurun qolundan tutur. Yerinə utanım, a Hacı!—deyib hətta gülümsəməyə çalışdı.

Çəkib onu dikdirdən endirdi, birbaş evinə sarı apardı.

—Fikir eləmə, fikir eləmə, başına dönüm,—deyirdi.—Qurban səhv iş tutub. Bilmirəm nə olub, dava başlayalı elə hamıya şübhəynən baxır sağ olmuş… Camaatı da qınama. Mən danışaram, Qurbanı da, camaatı da başa sallam. Qurbanın hörməti var, ona inanırlar. Sən yaddan çıxartma ki, dəmirçi İsfəndiyarın da azdan-çoxdan hörməti var camaat arasında!..

Sağdan-sola qapılar, pəncərə tayları açılır, ala-qaranlıq yola işıq zolaqları və bu zolaqların içində adamların tərpənişən kölgələri düşürdü. İsfəndiyar kişi heç kəsə baxmasa da, elə adamların bu kölgələrindən anlayırdı ki, idarənin qabağında olduğu kimi, burda da hamı təəccüblənirdi, heyrət edirdi, qol-qola, çiyin-çiyinə gedən bu iki nəfəri heç kəs dərk etmirdi.

Qoca köksünü ötürdü.

—İnşallah, hər şey yaxşı olar, başına dönüm, inşallah hər şey yoluna düzələr!—dedi və birdən xırp dayandı.

Milli qonşu evdən düşən işıq zolağı içində durub ona baxırdı.

Birdən yerindən qopub yüyürdü. İsfəndiyar kişi qızın qaçıb ondan gizlənmək istədiyini güman etdi. Amma Milli kənara yox, birbaş onun yanına yüyürdü. Hər iki əli ilə qocanın biləklərindən yapışıb, dəli kimi tez-tez əllərindən öpməyə, nə isə pıçıldamağa başladı.

Qoca heyrətlə, ikrah hissi ilə biləklərini qızın əllərindən qoparıb dala çəkildi.

—Nə olub sənə? Bu nə deməkdi, bala!
—İsfəndiyar əmi, məni bağışla! Bağışla mən başı batmışı! Dünən arvadlar mənə çaxır içirtmişdilər. Ağzıma gələni danışdım. Sonra da… Sonra da sən o cür yıxıldın…

Qoca köksünü ötürdü.

—Məni yıxan yıxdı, bala,—dedi.—Ancaq səni bağışlamıyacağam.

Qeyri-iradi Hacıya baxıb, sonra birdən qıza tərəf döndü.

—Düş qabağıma, gedək, kağızları göstər mənə!

Millinin gözləri geniş açılıb qırpımsız qaldı.

—Nə kağız, İsfəndiyar əmi?!
—Sandığa doldurub saxladığın kağızları deyirəm.

Milli əlini üzünə apardı. Gur işıq zolağında qoca onun rənginin ağardığını aydınca gördü. Qızın səsi də dəyişdi:

—Onu sənə kim deyib, İsfəndiyar əmi?
—Yeri, gedək, göstər!
—Yox!.. Yox!.. Baxma!.. Sən o kağızlara baxma, İsfəndiyar əmi!

Qocanın ürəyi ağrıdı. Artıq hiss etmişdi, məsələnin nə yerdə olduğunu başa düşmüşdü:

—Göstər!
—Yox, yox!..
—Sandığın açarını ver bura!
—Yox, yox!.. O kağızlar pis kağızlardı, İsfəndiyar əmi? Hamısında qara xəbər var!

Milli əlləri ilə üzünü qapadı.

Qoca ağır-ağır yeriyib poçtalyonun qabağında dayandı. Nəfəsi tutulurdu.

—Bir de görüm nə dedin, a qızım… Qara xəbər dedin?.. Hamısındamı, yoxsa nə təhər?
—Mən o kağızları heç kəsə göstərmiyəcəm! Göstərmiyəcəm! O kağızların heç biri muştuluqluq deyil! Göstərmiyəcəm!—Milli titrəyə-titrəyə pıçıldayırdı. Qızın barmaqları arasında göz yaşı parıldayırdı.

Bu dəfə İsfəndiyar kişi onun biləklərindən tutdu, əllərini üzündən çəkdi, dinməz-söyləməz bir müddət gözlərinə baxdı. Yaşdan azacıq bulansa da, bu göyçək gözlərdəki təmizliyi, aydınlığı görməmək olmazdı.

—Mən o kağızları yandıracağam! Heç kəsə göstərmiyəcəm!..—Milli boğulurdu.

Qocanın da nəfəsi lap daralmışdı.

Güc-bəla ilə dilləndi:
—Bizim uşaqlardan… Rəhmannan Bəhməndən orda bir şey…

Milli ikinci dəfə əlləri ilə üzünü qapadı və qaçıb qaranlıqda yox oldu.

İsfəndiyar kişi yetimin arxasınca getmədi. Hacını da, namus müsibətini də unudub, birdən-birə ağırlaşmış çəkmələrini sürüyə-sürüyə həyətinə qayıtdı.

Qovağın altında oturdu. Kürəyini ağacın gövdəsinə söykədi.

Pəncərə arxasında yeddilik lampa işıldayırdı. Balkonda qaranquşlar hərdən yuxulu-yuxulu civildəşirdi. Hər il yuvasına tək gəlib tək də gedən hacıleylək qovağın ucalığında dimdiyini şaqqıldadıb uzaqlardan kimi isə çağırırdı.

İsfəndiyar kişi nə qədər oturduğunu bilmədi.

Dəmir yolundan tanış qıjıltı ilə təkər taqqıltıları eşidildi. Ancaq qoca başını qaldırmadı, drezenə baxmaq istəmədi.

Kim isə gəlib iki addımlıqda dayandı. Hacı idi. Bayaqdan su quyusunun dikdirinin qırağında oturmuşdu. İndi getmək istəyirdi.

Qoca ona baxdı.

—Gedirsən?..
—Gecən xeyrə qalsın, İsfəndiyar əmi. Gedim.

Qoca dilədi.

—Yox, getmə… Zəhmət çək, içəridən sazı mənə gətir, bala… Tilsim sındı… Gətir sazı,—dedi.

———

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Səkinə İsgəndərova
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: aprel, 2004